RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 254 (9133) ÇƏRŞƏNBƏ AXŞAMI, 22 noyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## 40 il öncə Ulu Öndər Heydər Əliyev Sov.İKP MK-nın Siyasi Bürosuna üzv seçildi



## Kremldə ucalan şanlı Azərbaycan bayrağı

Heydər Əliyevin Azərbaycana uğurlu rəhbərliyi nəticəsində respublikamızın uğurları SSRİ miqyasında nümunəyə çevrilmişdi. Bunun məntiqi nəticəsi kimi Heydər Əliyev 1982-ci il 22 noyabrda Sov. İKP MK-nın Siyasi Büro üzvü seçildi. Həm Siyasi Büroya seçilməsi, həm SSRİ kimi nəhəng bir dövlətin Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi Heydər Əliyevin böyüklüyünün təcəssümü idi. Bütün bunlar Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafının təsdiqi idi. Heydər Əliyevin SSRİ rəhbərliyinə irəli çəkilməsi xəbəri Azərbaycanda da sevinclə qarşılanmış, bayram əhvali-ruhiyyəsi yaratmışdı. Əlbəttə ki, bir azərbaycanlının SSRİ-nin rəhbərliyində təmsil olunması qürurdoğuran hal idi.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi bir çox sahələr Heydər Əliyevin nəzarəti altında idi. Ulu Öndər SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edirdi. Məhz Heydər Əliyevin təcrübəsi, yüksək təşkilatçılıq qabiliyyəti nəticəsində həmin sahələrdə ittifaq üzrə yüksək göstəricilər əldə olunmuşdu. Ulu Öndərin xarici ölkələrə səfərləri, Moskvada xarici dövlətlərin rəsmiləri ilə keçirdiyi görüşlər isə SSRİ-nin xarici əlaqələrinin inkişafında böyük rol oynamışdı. Çünki Heydər Əliyevin şəxsində isə bütün dünya həm də Azərbaycanı və xalqımızı daha yaxından tanıdı.

→ 6




# 30 il Azərbaycan dövləti Ulu Öndərin vəsiyyəti əsasında inkişaf edir

## Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyanın yaradılmasının 30 illiyi münasibətilə tədbirdə iştirak edib

**Noyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə tədbir keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tədbirdə çıxış edib.**

→ 2-3



## İlham Əliyev Kasım-Jomart Tokayevi təbrik etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.

Dövlətimizin başçısı Kasım-Jomart Tokayevi prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edib, ona Qazaxıstanın inkişafı və firavanlığı naminə prezidentlik fəaliyyətində, o cümlədən aparılan islahatların həyata keçirilməsi işində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Kasım-Jomart Tokayev göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Söhbət zamanı Qazaxıstan Prezidentinin ölkəmizə son rəsmi səfəri çərçivəsində, eləcə də oktyabr ayında Astanada dövlət başçıları arasında keçirilmiş görüşlər məmnunluqla xatırlanıb, həmin görüşlərdə əldə edilmiş razılıqların uğurla icra edildiyi qeyd olunub.

Kasım-Jomart Tokayev Azərbaycan Prezidentini ölkəsinə rəsmi səfərə dəvət edib.

Dəvət məmnunluqla qəbul olunub.

Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə edib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Yeni Azərbaycan Partiyası ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası arasında səmərəli əməkdaşlıq həyata keçirilir



→ 4

## Prezident İlham Əliyev Rusiyanın "Yedinaya Rossiya" Partiyasının Ali Şurası Bürosunun üzvünü qəbul edib



→ 4

## Azərbaycan Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının fəaliyyətinə həmişə mühüm töhfələr verir



→ 4

## Özbəkistan rəhbərliyi Azərbaycan ilə qarşılıqlı əlaqələri yüksək qiymətləndirir



→ 4

## Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının Prezidenti vəzifəsinə növbədənkənar seçkilərdə qazandığınız inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Səsvermənin nəticələri xalqınızın Sizə olan böyük inam və etimadının bariz təzahürü, qardaş Qazaxıstanın hərtərəfli inkişafı yolunda fəaliyyətinizə verilən yüksək qiymətdir.

Qardaş xalqlarımızı birləşdirən ortaq mənəvi dəyərlər, dini-mədəni köklər və möhkəm dostluq Azərbaycan-Qazaxıstan dövlətlərarası əlaqələrini şərtləndirən başlıca amillərdəndir. Bu gün çoxşaxəli münasibətlərimizin və əməkdaşlığımızın qarşılıqlı hörmət və etimad ruhunda inkişaf etməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur.

Əminəm ki, Azərbaycan ilə Qazaxıstan arasında ənənəvi dostluq əlaqələrinin daha da genişlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın və strateji tərəfdaşlığımızın dərinləşməsi yolunda səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqının rifahı naminə məsul fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2022-ci il*

# Azərbaycan dövləti Ulu Öndərin vəsiyyəti əsasında inkişaf edir

## Prezident İlham Əliyevin çıxışı






- Hörmətli Yeni Azərbaycan Partiyasının üzvləri!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün biz Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünü qeyd edirik. Bu münasibətlə Yeni Azərbaycan Partiyasının bütün üzvlərini ürəkdən təbrik edirəm!

Partiyamızın yaranması tarixi hadisə idi. O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdi, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdi. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.

Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransı, bir daha demək istəyirəm, tarixi hadisə idi. Ulu Öndərin sədrliyi ilə keçirilmiş bu konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yaranmışdır. Yeni Azərbaycan Partiyası yaranarkən müxalifət partiyası kimi yaranmışdır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi. Çünki o vaxt, bir daha demək istəyirəm, ölkədə gedən proseslər çox narahatedici idi və Azərbaycanın görkəmli nümayəndələrinin məhz Heydər Əliyevə müraciət etməsi bu zərurətdən doğurdu. Çünki ölkə artıq idarəolunmaz vəziyyətə düşmüşdü, bir il ərzində dövlətçiliyin əsasları qoyulmamışdı, demokratik inkişaf ləng gedirdi, əslində, geriyə addımlar atılırdı. Biz təkcə senzuranın tətbiq edilməsini yada salsaq, demək kifayətdir ki, o vaxt demokratik mühitdən söhbət gedə bilməzdi. Yeni Azərbaycan Partiyasının təsis konfransının məhz Naxçıvanda keçirilməsi də buna bağlı idi. O vaxt Bakıda bu konfransın keçirilməsinə icazə verilməmişdi. Yəni demokratik dəyərlər elan olunsa da, Azərbaycan xalqı faktiki olaraq həyatda bunun əksini görürdü. Media azadlığı yox idi, iqtisadiyyat çox ağır vəziyyətdə idi, insanların sosial vəziyyəti gündən-günə ağırlaşırdı, yoxsulluq təxminən 90 faizə çatmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi. Bizim sənayemizin aparıcı sahəsi olan neft-qaz sənayesi də böyük tənəzzülə uğramışdı və faktiki olaraq ölkəmizdə elektrik enerjisi böhranı hökm sürürdü. Nizami ordu yaradılmamışdı, inflyasiya ikirəqəmlidən üçrəqəmliyə keçirdi. Yəni bu idi 1992-ci ilin noyabr ayında ölkəmizdə yaranmış vəziyyət.

Əlbəttə ki, torpaqlarımızın işğal altına düşməsi vəziyyətimizi daha da ağırlaşdırırdı. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi həm mənəvi cəhətdən, eyni zamanda hərbi-strateji nöqteyi-nəzərdən böyük faciə idi. Beləliklə, o vaxt "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlandırılan ərazi ilə Ermənistan arasında coğrafi bağlantı təmin edildi. Hər kəs yaxşı görürdü ki, əgər işlər belə davam etsə, Kəlbəcərin də işğalı qaçılmaz olacaqdır. Əfsuslar ki, belə də oldu. Yəni 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşdü və beləliklə, ərazimizin böyük hissəsi nəzarətimizdən çıxdı.

Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi. Bu inamın əsas səbəbləri o idi ki, Azərbaycanda işlədiyi dövrdə o, həmişə xalqa xidmət edirdi, həmişə xalqın qayğıları ilə yaşayırdı, həmişə xalqla birlikdə idi, bir yerdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycan 1970-80-ci illərin əvvəllərində sovet məkanında ən geridə qalmış respublikadan ən qabaqcıl respublikaların birinə çevrilmişdi və bütün statistik göstəricilər bunu təsdiqləyir. Eyni zamanda Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsi ildən-ilə yaxşılaşırdı, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan insanlar öz həyatını yenidən qura bilmişdilər. Xalqımızın Heydər Əliyevə inamı, yenə də deyirəm, misilsiz idi. Xüsusilə xalqımızın 1980-ci illərdə üzləşdiyi faciə bir daha göstərirdi ki, xalqımız yalnız Heydər Əliyevi rəhbər vəzifədə görmək istəyir. Çünki onun çalışdığı dövrdə - nə 1969-1982-ci illərdə Azərbaycanda birinci şəxs kimi çalışdığı dövrdə, nə 1982-1987-ci illərdə Moskvada Siyasi Büronun üzvü kimi çalışdığı dövrdə bir dəfə də olsun Qarabağda separatçı qüvvələr baş qaldıra bilmədilər.

Halbuki belə meyillər var idi, ondan əvvəlki dövrlərdə də var idi. Heydər Əliyev bütün vəzifələrdən istefa verəndən iki həftə keçməmiş erməni separatçıları artıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşməsi ilə bağlı məsələ qaldırmışdılar. Yəni bu amillər göstərir ki, Ulu Öndər pensiyada olanda da, xalqımız üçün ən faciəvi günlərdə də xalqla birlikdə idi. 20 Yanvar faciəsinin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hökumətini, Kommunist Partiyasını - uzun illər xidmət etdiyi partiyanı ittiham etmişdir, bu dəhşətli cinayəti qınamışdır. Bütün bunlar və eyni zamanda Naxçıvanda çalışdığı dövrdə müstəqilliyə doğru atılan addımlar, o cümlədən Azərbaycan Demokratik Respublikasının Dövlət Bayrağının Naxçıvanda rəsmi bayraq kimi qaldırılması və digər addımlar, həmçinin Naxçıvanın erməni işğalından qorunması xalqın ona inamını daha da artırırdı və bütün bu amillər nəticədə xalqımızın müdrikliyinə əsaslanaraq gələcəkdə Azərbaycanı böyük bəlalardan qurtara bilmişdir.

YAP-ın təsis konfransından yeddi ay keçəndən sonra Heydər Əliyev xalqın tələbi ilə Bakıya dəvət edildi, parlamentin sədri seçildi, 11 ay keçəndən sonra - oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Beləliklə, tariximizin o qara səhifəsi bağlandı.

Ölkə qarşısında çox ciddi, böyük problemlər var idi. Məhz Heydər Əliyevin cəsarəti, zəkası, təcrübəsi, xalqın ona olan inamı və əlbəttə, Yeni Azərbaycan Partiyasının üzvlərinin fəaliyyəti, ictimai fəalların fəaliyyəti birlikdə bizə imkan verdi ki, bu çətin vəziyyətdən şərəflə çıxaq. Məhz Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin strateji xəttini müəyyən edən əsas addımlar atılmışdır. İlk növbədə Konstitusiya qəbul edilmişdir. Təsəvvür edin ki, Heydər Əliyev hakimiyyətə gələnə qədər Azərbaycan artıq müstəqil dövlət idi, amma bizim Konstitusiyamız yox idi. Konstitusiyanın qəbul edilməsi çox önəmli tarixi hadisədir. Dövlətçiliyin əsasları qoyulmuşdur, dövlət təsisatları düzgün zəmində formalaşmışdır. Biz beynəlxalq aləmdə bizə qarşı olan əsassız mövqeyə düzəlişlər edə bildik, tam aradan qaldırmadıq, çünki beynəlxalq müstəvidə bizə qarşı çox ciddi qüvvələr fəaliyyət göstərirdi. Amma hər halda biz beynəlxalq təcridi, o cümlədən informasiya blokadasını yara bildik, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdıra bildik.

Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz, doğrudan da, güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı ordumuzla fəxr edir. Yəni bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Yəni 1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir.

Bizim uğurlu iqtisadi-maliyyə siyasətimiz nəticəsində xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bu da həm bu gün üçün, həm gələcək nəsillər üçün böyük üstünlük təşkil edir. Bu gün ona görə ki, bizim kredit reytinqimiz yaxşılaşır.

*Ardı 3-cü səh.*

# Azərbaycan dövləti Ulu Öndərin vəsiyyəti əsasında inkişaf edir

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 2-ci səh.*

Gələcək nəsillər üçün ona görə ki, bu yük gələcək nəsillərin üzərinə düşməyəcək. Bir neçə il bundan əvvəl mənim göstərişimlə aparılan islahatlar nəticəsində bu ilin sonuna biz xarici borcumuzun ümumi daxili məhsuldakı payını 10 faizə qədər endirəcəyik. Əgər valyuta ehtiyatlarımızı götürsək, bizim valyuta ehtiyatlarımız xarici borcdan 8 dəfə çoxdur. Yəni ancaq nadir ölkələr bu göstəricilərlə fəxr edə bilər.

Əlbəttə ki, bu gün hələ də görüləsi işlər çoxdur. İqtisadiyyatımızın şəffaflaşdırılması, xoşagəlməz hallara qarşı mübarizə, kölgə iqtisadiyyatının həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə - bütün bunlar gündəlikdə duran məsələlərdir. O cümlədən dövlət şirkətlərində korporativ idarəetmə üsulunun tətbiq edilməsi bu günün reallıqlarını əks etdirir. Əminəm ki, bu gün aparılan iqtisadi islahatlar - strateji xətt üzrə aparılan bu islahatlar yaxın gələcəkdə də bizə əlavə imkanlar verəcək. O cümlədən Qarabağı və Şərqi Zəngəzuru öz hesabımıza yenidən qurmaq və bütün məqsədlərə çatmaq üçün bizə mütləq güclü iqtisadiyyat bundan sonra da lazım olacaq. Çünki bu əsasdır. O ölkələr ki, iqtisadi cəhətdən digər ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə qurumlarından asılıdır, o ölkələr faktiki olaraq müstəqil siyasət aparmaqda çətinlik çəkirlər. Biz isə hər zaman istəyirdik ki, bizim siyasətimiz ancaq xalqımızın iradəsini əks etdirsin. Biz istəyirdik ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməsin və belə bir imkan olmasın. Ona görə iqtisadi güc, iqtisadi müstəqillik bütün başqa sahələrdəki fəaliyyətin təməlidir. Ulu Öndərin yolu ilə gedərək biz, əlbəttə, bu gün dünyada baş verən dəyişikliklərə də çox diqqətlə yanaşırıq, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edirik. Əminəm ki, növbəti illərdə bu sahədə istədiyimizə nail olacağıq.

Biz yoxsulluğu əhəmiyyətli dərəcədə azalda bilmişik. Hətta pandemiya dövründə yoxsulluq bir qədər artsa da, postpandemiya dövründə görülmüş işlər nəticəsində minimum əməkhaqqının, pensiyanın minimum məbləğinin müntəzəm olaraq artırılması nəticəsində yoxsulluğu da, biz təqribən 5 faiz ətrafında saxlayırıq. Bu da dünya miqyasında çox gözəl göstəricidir. Burada həm dövlət siyasəti, həm iqtisadi-maliyyə sektorundakı şəffaflıq, eyni zamanda biznes mühitinin yaxşılaşdırılması, yerli və xarici sərmayələrin bundan sonra da qeyri-neft sektoruna cəlb edilməsi əsas amillərdən biri olacaq.

Azərbaycan dövləti Ulu Öndərin bizə etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Biz hamımız bunun şahidiyik ki, gənc nəsil də milli ruhda böyüyür, gənc nəsil milli ənənələrə sadiqdir, azərbaycançılıq ideyalarına sadiqdir. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır, bu da Ulu Öndərin siyasəti idi. Biz bu siyasəti uğurla davam etdirərək, zənginləşdirərək bu gün Azərbaycanda, hesab edirəm ki, dünya miqyasında nadir və təkrarolunmaz mühit yaratdıq. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu, bizim böyük üstünlüyümüzdür. Bu istiqamətdə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə bu gün Azərbaycan nümunəvi davranış göstərir. Əsas məsələ odur ki, bütün Azərbaycan xalqı tərəfindən, Azərbaycanda yaşayan bütün etnik qruplar tərəfindən bu siyasət dəstəklənir. Bu, bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdır, əminəm ki, belə yaşayacaqlar.

Bizim hələ 1990-cı illərin ortalarında Ulu Öndərin təşəbbüsü ilə başlanmış neft-qaz layihələri indi görün nə qədər geniş vüsət almışdır. Hətta onun müəllifi olduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri əsas rol oynamışdır. Amma ondan sonrakı layihələr bizim imkanlarımızı böyük dərəcədə genişləndirdi və bu gün Azərbaycan bir çox ölkələr üçün əvəzolunmaz tərəfdaşa çevrilib. Bu gün dünyada gedən proseslər bunu göstərir ki, enerji təhlükəsizliyi təhlükəsizliyin əsas amillərindən biridir. Bu olmadan heç bir ölkə özünü təhlükəsiz saya bilməz. Bizim üstünlüyümüz, əlbəttə, ondadır ki, təbii sərvətlərimiz var. Amma o qədər ölkələr var ki, onların təbii sərvətləri bizimkindən qat-qat çoxdur. Lakin, - mən heç kimlə müqayisə aparmaq istəmirəm, - o sərvətlərdən bütünmü ölkələr səmərəli şəkildə istifadə edir? Əlbəttə ki, yox. Ona görə Azərbaycanda bu sahədə aparılan işlər həm ölkə iqtisadiyyatını gücləndirdi, eyni zamanda əldə edilmiş gəlirlər ədalətli şəkildə cəmiyyətdə bölüşdürüldü. İlk növbədə ən həssas qruplar bu imkanlardan faydalandılar, o cümlədən keçmiş məcburi köçkünlər. Məhz onlar Azərbaycan Dövlət Neft Fondunun vəsaiti hesabına tikilmiş 300 mindən çox ev və mənzillə təmin edilmişlər. Eyni zamanda neft-qaz layihələrimiz bizim beynəlxalq mövqelərimizi də gücləndirdi. Çünki xüsusilə indiki şəraitdə, bugünkü gündə Azərbaycanın infrastrukturu, nəqliyyat, enerji infrastrukturu bir çox ölkələr üçün həyati əhəmiyyət kəsb edir. Əlbəttə ki, geosiyasi imkanlarımız artdıqca ölkə maraqları daha da dolğun şəkildə təmin edilir, müxtəlif qitələrdə bizim dostlarımızın sayı artır.

Güclü ordu quruculuğu. Bu da Ulu Öndərin bizə olan vəsiyyəti idi. Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik. Bəzi işlər ictimai diqqətə də təqdim edilirdi, bəzi işləri biz daha çox konfidensial, yəni məxfi şəraitdə aparırdıq, bu da başadüşüləndir. Amma nəticə etibarilə elə bir qəhrəmanlıq, elə bir peşəkarlıq göstərdik ki, bu bu gün bir çoxları üçün nümunədir.

Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmləndi. Bu haqda çox danışmaq olar, sadəcə olaraq, bir neçə məqamı qeyd etmək istəyirəm. Biz MDB məkanında birinci ölkə olduq ki, 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Biz 2019-cu ildə 120 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatına sədr seçildik və uğurlu sədrliyimizə görə bizim sədrlik müddətimiz bir il daha uzadıldı, gələn ilin sonuna qədər biz sədrlik edəcəyik. Biz İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı çərçivəsində, o cümlədən bir çox digər təşkilatlar çərçivəsində uğurlu fəaliyyət göstəririk. Hətta üzv olmadığımız təşkilatlarda da bizim dostlarımız az deyil və son illərin, ayların hadisələri onu bir daha göstərir. Məsələn, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı. Biz bu təşkilatın üzvü deyilik, Ermənistan bu təşkilatın üzvüdür və bu təşkilat xətti ilə Azərbaycana qarşı əsassız iddia qaldırmaq fikrində idi, faktiki olaraq bu təşkilata üzv olan ölkələri Azərbaycanla üz-üzə qoymaq istəyirdi. Bu, böyük təxribatdır və böyük cinayətdir.

Ancaq bu təşkilatın digər üzvləri bu təxribata getmədilər. Bəziləri isə öz çıxışlarında Ermənistanı elə günə qoydular ki, Ermənistanda bu günə qədər də bunu yaddan çıxara bilmirlər. Yəni bu nəyi göstərir? Bu təşkilatda bizim dostlarımız Ermənistanınkından daha çoxdur. Nəyə görə? Siyasətimizə görə, bizim etibarlı tərəfdaş olmağımıza görə. Ermənistana nə üçün münasibət mənfidir? Ona görə ki, onlar hər yerdə yalan danışırlar və öz problemlərini həll etmək üçün daha qapı qalmayıb ki, oraya müraciət etməsinlər. Bütün bunlar göz qabağındadır, hər kəs bunu görür, hər kəs bunu bilir.

Bu yaxınlarda yenə də üzv olmadığımız, amma Ermənistanın, bilmirəm hansı səbəbə görə, üzv olduğu Frankofoniya təşkilatı çərçivəsində də Azərbaycana qarşı çirkin bir təxribat planlaşdırılırdı. Bu təxribatın müəllifi Fransa idi və Fransa da Ermənistana indi himayədarlıq edir. Onlar bir-birinə "bacı" deyirlər və mən görürəm, yoldaşlar da bunu xüsusi qeyd etdilər. Mən daha demədim ki, "qardaş" da deyə bilərdilər, amma nədənsə bunlar "bacı" deyirlər. Orada hazırlanmış qətnamənin ilkin variantı sırf anti-Azərbaycan tezisləri üzərində qurulmuşdur və həqiqətə tam zidd idi. Frankofoniya təşkilatında olan dostlarımızın, - onları biz yaxşı tanıyırıq və onlar da, sözün əsl mənasında, dostlarımızdır, - səyi nəticəsində bütün anti-Azərbaycan tezisləri oradan çıxarıldı. Fransa-Ermənistan tandemi bu imkandan da istifadə edə bilməmişdir. Yəni bu onu göstərir ki, bizim beynəlxalq təşkilatlardakı nüfuzumuz və beynəlxalq müstəvidə apardığımız siyasət təqdir edilir. Çünki biz hər bir işə hər zaman məsuliyyətlə yanaşırıq. Bizim sözümüzlə imzamız arasında heç bir fərq yoxdur. Biz xarici siyasət konsepsiyamızda əməkdaşlıq, dostluq prinsiplərini üstün tuturuq və imkan daxilində ehtiyacı olan ölkələrə kömək göstəririk, necə ki, COVID dövründə 80-dən çox ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Yəni bu, böyük məsələdir. Əlbəttə ki, beynəlxalq arenada özümüzü ləyaqətlə aparmağımız bizə əlavə hörmət qazandırdı.

Bu gün Yeni Azərbaycan Partiyasının yubileyini qeyd edərkən hər birimiz, şübhəsiz, hər birimiz yenə də Ulu Öndərin xatirəsinə ehtiramımızı ifadə edirik. Çünki illər keçdikcə və dünya dəyişdikcə hər birimiz çox gözəl bilirik ki, əgər o vaxt Azərbaycan xalqı Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etməsəydi, ölkəmiz daha böyük fəlakətlə üzləşə bilərdi.

Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi. O, hətta özü üçün ən çətin dövrlərdə, artıq son illərdə fiziki sağlamlığı əvvəlki kimi olmadığı dövrdə də hər zaman hər birimizə nümunə göstərirdi. Hər birimiz, o cümlədən mən onun sağlığında da və yoxluğunda da onun kriteriyalarına uyğun hərəkət etməyə çalışırıq. Bu gün bizi qabağa aparan məhz budur - onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır.

Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq. Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi - Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçüb-biçib öz gücümüzü, eyni zamanda digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi.

İndi isə qurub-yaradırıq, Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq. Həyatımızda və ölkəmizin həyatında tamamilə yeni dövrdür. Bu quruculuq işlərində hər birimiz böyük həvəslə, bir məqsədlə iştirak edirik ki, keçmiş köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytaraq, dağılmış şəhər və kəndləri tezliklə bərpa edək və bütün dünyaya bir daha göstərək ki, biz böyük xalqıq. Bu gün nəinki Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları başını dik tutublar. Bizim üzümüz ağdır, alnımız açıqdır. Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaq!

❖ ❖ ❖

Sonra tədbir çıxışlarla davam etdi.

Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini və İstanbulun millət vəkili Numan Kurtulmuş AK Partinin Sədri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təbrik məktubunu oxudu.

Rusiya Federasiyasının "Yedinaya Rossiya" Partiyasının Ali Şurasının Bürosunun üzvü, Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədr müavini Andrey Klimov partiyanın sədri Dmitri Medvedevin, Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min Çin Kommunist Partiyasının Mərkəzi Komitəsi sədrinin, Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Xarici əlaqələr komitəsi sədrinin müavini Somfon Siçulun Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Baş katibi, Laos Xalq Demokratik Respublikasının Prezidenti Tonqloun Sisoulizin təbrik məktublarını diqqətə çatdırdılar.

Özbəkistanın Liberal Demokratik Partiyasının İcra Komitəsinin sədri Aktam Xaitov isə Yeni Azərbaycan Partiyasına yazdığı təbrik məktubunu oxudu.

Sonra YAP İdarə Heyətinin üzvü Arif Rəhimzadə, partiyanın Xətai Rayon Təşkilatının sədri Vüqar Rəhimzadə, Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Anar Mirzəyev, "Azərbaycan Bayrağı" ordenli şəhid Nurlan Mustafayevin anası Rahilə Ramazanova, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, YAP-ın Naxçıvan Dövlət Universiteti üzrə ərazi partiya təşkilatının sədri Arzu Abdullayev, YAP Gənclər Birliyinin üzvü Ülviyyə Axundova, Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının (ICAPP) baş katibi Cho Byunq-jaen, Şimali Makedoniyanın Türk Demokratik Partiyasının sədri Beycan İlyas çıxış etdilər.

Natiqlər Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaranmasından, partiyanın 30 illik fəaliyyəti dövründə əldə edilən uğurlardan və gələcəkdə atılacaq addımlardan danışdılar. YAP-ın xalqın sevgisini və dəstəyini qazandığını, ölkədə sabitliyin təminatında avanqard rolunu davam etdirdiyini diqqətə çatdıran çıxışçılar qeyd etdilər ki, bu gün Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası nəinki regionda, eləcə də beynəlxalq arenada özünün böyük nüfuzu ilə tanınır.

Daha sonra YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin, Bolqarıstanın Haqq və Azadlıqlar Hərəkatı Partiyasının təbrik məktublarını diqqətə çatdırdı. Yeni Azərbaycan Partiyasının ünvanına təbrik məktublarının gəldiyinin davam etdiyini diqqətə çatdıran YAP Sədrinin müavini bu barədə mətbuata əlavə məlumat veriləcəyini bildirdi. YAP-ın Mərkəzi Aparatı adından tədbirin iştirakçılarını partiyanın 30 illik yubileyi münasibətilə təbrik edən Tahir Budaqov Ulu Öndər Heydər Əliyevin işıqlı ideyaları ətrafında sıx birləşərək Prezident İlham Əliyevin siyasətinin bundan sonra da ardıcıl olaraq həyata keçirilməsi istiqamətində hər kəsə uğurlar arzuladı.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başa çatdı.
















# Yeni Azərbaycan Partiyası ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası arasında səmərəli əməkdaşlıq həyata keçirilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyasının (AK Parti) sədrinin birinci müavini və İstanbulun millət vəkili Numan Kurtulmuşu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Numan Kurtulmuş Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə dövlətimizin başçısını təbrik etdi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını ifadə etdi. Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə təşəkkürünü bildirərək, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi. Görüşdə dostluq və qardaşlıq münasibətlərimizin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

Söhbət zamanı Yeni Azərbaycan Partiyası ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulanaraq, əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Rusiyanın "Yedinaya Rossiya" Partiyasının Ali Şurası Bürosunun üzvünü qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Rusiya Federasiyasının "Yedinaya Rossiya" Partiyasının Ali Şurası Bürosunun üzvü, Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədr müavini Andrey Klimovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaq Azərbaycanın son illər əldə etdiyi mühüm nailiyyətlər, uğurlar və Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illik yubileyi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirdi. Söhbət zamanı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

Görüşdə Yeni Azərbaycan Partiyası ilə "Yedinaya Rossiya" Partiyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu və perspektivlərlə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının fəaliyyətinə həmişə mühüm töhfələr verir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının (ICAPP) baş katibi Cho Byunq-jaeni qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaq Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, partiyanın əldə etdiyi uğurlar və ölkəmizin qazandığı mühüm nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirdi.

Görüşdə ICAPP-nin sabah Bakıda keçiriləcək "Sülh və təhlükəsizlik: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransının əhəmiyyəti vurğulandı.

Söhbət zamanı ölkəmizin Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının fəaliyyətinə həmişə mühüm töhfələr verdiyi qeyd edildi, uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.

# Özbəkistan rəhbərliyi Azərbaycan ilə qarşılıqlı əlaqələri yüksək qiymətləndirir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Özbəkistanın Liberal Demokratik Partiyasının İcra Komitəsinin sədri Aktam Xaitovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Aktam Xaitov Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə Prezident İlham Əliyevi öz adından və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin adından təbrik etdi, Özbəkistanın dövlət başçısının xoş arzularını Prezident İlham Əliyevə çatdırdı. Aktam Xaitov Prezident Şavkat Mirziyoyevin Azərbaycan ilə qarşılıqlı əlaqələri yüksək qiymətləndirdiyini vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi, onun da xoş arzularını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi. Bu il ərzində Özbəkistana üç dəfə səfər etdiyini deyən Prezident İlham Əliyev Prezident Şavkat Mirziyoyevlə görüşlərini məmnunluqla xatırladı.

Söhbət zamanı Yeni Azərbaycan Partiyası ilə Özbəkistanın Liberal Demokratik Partiyası arasında əməkdaşlığın səmərəliliyinin və qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı.

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318, № 8, maddə 922, № 12, maddə 1403; 2022, № 7, maddə 762; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1811 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə III - "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.3-2-ci yarımbənd əlavə edilsin:

"3.1.3-2. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 74-cü maddəsinin 1-1-ci hissəsində nəzərdə tutulan hallarda işçinin elektron informasiya sistemində qüvvədə olan əmək müqaviləsi bildirişinin qüvvədən düşmüş hesab edilməsi barədə inzibati akt formasında qərar qəbul etmək, bununla bağlı işçinin müraciəti əsasında əmək kitabçasında müvafiq qeydlər aparmaq;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2022-ci il*

## Azərbaycan Respublikası ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Ədliyyə orqanlarında qulluq keçərkən fərqləndiklərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Əliyev Lətif Paşa oğlu
Məmmədov Elnur Rövşən oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Ağayev Davud Maşalla oğlu
Əliyev Emin Rza oğlu
Əliyeva Pərvin Afiq qızı
Əliyeva Səkinə Qamboy qızı
Qasımov Elçin Zeynalabdın oğlu
Qurbanov Qismət Rəşid oğlu
Nəsirova Xalidə Tofikovna.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2022-ci il*

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Əliyev Şahin Məhərrəm oğlu - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru

Məmmədov Rəhman Elmaz oğlu - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2022-ci il*

## *Tahir BUDAQOV:* "Yeni Azərbaycan Partiyası ölkəmizdə siyasi sistemə mühüm yeniliklər gətirdi"

Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılan Yeni Azərbaycan Partiyası ölkəmizdə siyasi sistemə mühüm yeniliklər gətirdi.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib. Tahir Budaqov bildirib ki, Yeni Azərbaycan Partiyası faktiki olaraq 30 il ərzində ölkəmizdə demokratik siyasi mühitin yaradılmasının tərəfdarı olub. Son vaxtlar, xüsusilə də ölkəmizin tarixi Zəfərindən sonra Azərbaycanda və regionda yeni geosiyasi reallıqlar yaranıb. 44 günlük Vətən müharibəsi dövründə də Azərbaycan xalqı ümummilli maraqlar naminə vahid yumruq kimi birləşmək əzmində olduğunu göstərdi. Təbii ki, bu yeni reallıqlar şəraitində siyasi partiyalar arasında münasibətlərin də yeni müstəvidə qurulmasına ehtiyac yaranıb. Prezident İlham Əliyev öz çıxışlarında yeni siyasi konfiqurasiya ilə bağlı mesajlarını verib. Ümumiyyətlə, ölkəmizdə bu istiqamətdə işlər davam edir. Ümummilli maraqlar naminə siyasi partiyaların hər zaman konstruktiv dialoq qurması və əməkdaşlıq etməsi üçün imkanlar və perspektivlər var.

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Kambocaya səfərə gedib





Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti noyabrın 20-də Kamboca Krallığına səfərə gedib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Pnompen Beynəlxalq Hava Limanında nümayəndə heyətimizi ölkəmizin Kamboca Krallığındakı səfiri Şövqi Mehdizadə, Kamboca Milli Assambleyasının deputatları Ker Çanmoni, Man Navi, Mak Vanstiha, Ti Soxun və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri ASEAN Parlamentlərarası Assambleyasının 43-cü Baş Assambleyasının açılış mərasimində iştirak edib

**Xəbər verildiyi kimi, Milli Məclisin Sədri Sahibə Qafarova ASEAN Parlamentlərarası Assambleyasının (AİPA) 43-cü Baş Assambleyasında iştirak etmək üçün Kambocada səfərdədir.**

Noyabrın 21-də AİPA-nın 43-cü Baş Assambleyasının açılış mərasimi keçirilib. Milli Məclisin Sədri Kamboca tərəfinin dəvəti əsasında xüsusi qonaq qismində assambleyada iştirak edir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Kamboca Krallığı Milli Assambleyasının Sədri, AİPA-nın 43-cü Baş Assambleyasının prezidenti Akka Moha Ponhea Çakri Henq Samrin qonaqları salamlayıb.

Kamboca Krallığının Kralı Əlahəzrət Norodom Sihamoninin tədbir iştirakçılarına müraciəti oxunub.

Kamboca Krallığı Senatının sədri Vibolsena Fikdei Say Çum, Kamboca Krallığının Baş naziri və ASEAN-ın sədri Akka Moha Sena PadeiTeko Hun Sen, Kamboca Krallığı Milli Assambleyasının Sədri, AİPA-nın 43-cü Baş Assambleyasının prezidenti Akka Moha Ponhea Çakri Henq Samrin çıxış etdikdən sonra təşkilati məsələlərin müzakirə olunduğu birinci plenar sessiya keçirilib.

*"Azərbaycan"*








# Sahibə Qafarova ASEAN Parlamentlərarası Assambleyasının qadın parlamentarilərinin görüşündə çıxış edib





**Kamboca Krallığında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 21-də ölkənin paytaxtı Pnompendə keçirilən ASEAN Parlamentlərarası Assambleyasının qadın parlamentarilərinin görüşündə iştirak edib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova tədbir iştirakçılarını salamlayaraq, görüşdə iştirak etməkdən, fərqli ölkələri və təşkilatları təmsil edən qadın parlamentarilərlə görüşməkdən, birgə səy və kollektiv cavab tələb edən mövzularda fikir mübadiləsi aparmaqdan hər zaman məmnun olduğunu bildirib.

COVID-19 pandemiyasının gender bərabərliyinə və qadınların hüquq və imkanlarının artırılması məsələlərinə mənfi təsirlərindən söz açan Sahibə Qafarova pandemiyadan sonrakı bərpa dövründə əldə olunan nailiyyətlərin qorunmasının vacibliyini qeyd edib.

Parlament sədri qadınların həyatın bütün sahələrində iştirakı olmadan güclü və sabit bir cəmiyyət təsəvvür etməyin çətin olduğunu söyləyib. Gender problemlərinin əsas səbəblərindən birinin təhsillə bağlı olduğunu deyən spiker Sahibə Qafarova inklüziv cəmiyyətin yaradılmasında əsas diqqətin təhsilin gücləndirilməsinə və təhsildə bərabər imkanların təmin edilməsinə yönəldilməsinin əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, bu, qadınların siyasət, iqtisadiyyat və digər sahələrdə iştirakını artıracaqdır.

Parlamentlərin cəmiyyətin ehtiyaclarını və dəyişən dinamikasını əks etdirən nümayəndəli orqan olduğunu bildirən Milli Məclisin Sədri qadın parlamentarilərin pandemiyadan sonrakı dövrdə gender bərabərliyinin təmin olunması istiqamətində görə biləcəyi işlərdən söz açıb. O, təmsilçilik və idarəetmə baxımından qadın parlamentarilərin gender həssaslığının artırılmasından, millət vəkillərinin gender bərabərliyini təşviq edən və qoruyan yeni qanunların qəbul edilməsi və onların tətbiqi sahəsində fəaliyyətindən danışıb.

Gender bərabərliyinin və qadın iştirakçılığının gücləndirilməsinin beynəlxalq siyasi və inkişaf gündəliyinin ayrılmaz tərkib hissəsinə çevrildiyini deyən Sahibə Qafarova onu bərabər hüquqlara və bərabər imkanlara əsaslanan daha yaxşı bir dünyaya çatmaq yolunda çox vacib faktor kimi dəyərləndirib. O bildirib ki, yalnız milli səviyyədə deyil, qlobal səviyyədə də həmrəylik, əməkdaşlıq və koordinasiya həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə daha yaxşı nəticələr əldə etməyə imkan verir. Bu mənada belə platformalar hədəfləri müəyyənləşdirmək baxımından vacibdir.

Azərbaycanın 1918-ci ildə əksər Avropa ölkələrindən daha əvvəl qadınlara səsvermə hüququ verdiyini qeyd edən Milli Məclisin Sədri ölkəmizdə gender bərabərliyinin təmin edilməsində və qadınların hüquq və imkanlarının artırılmasında əldə olunan nailiyyətlərdən danışıb. O, Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsinin və parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin yaradılmasını bu istiqamətdə sistemli və struktur yanaşmanın tətbiq edilməsində, hökumətlə parlament arasında əməkdaşlığın təmin edilməsində mühüm qərarlar kimi dəyərləndirib.

Azərbaycanda gender bərabərliyi və qadın hüquqları sahəsində qanunvericiliyin təkmilləşdirilməsindən və dövlət proqramlarının həyata keçirilməsindən bəhs edən Sahibə Qafarova bu məsələlərlə bağlı beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi əhəmiyyət verildiyini bildirib. O, BMT və Azərbaycan arasında 2021-ci ilin mart ayında imzalanan 2021-2025-ci illər üçün Dayanıqlı İnkişafa dair Əməkdaşlıq üzrə Çərçivə Sənədində gender bərabərliyi məsələlərinin prioritet sahələr təşkil etdiyini diqqətə çatdırıb.

Çıxışında qadınların, xüsusən də qadın parlamentarilərin beynəlxalq sülh və təhlükəsizlik gündəliyinin təbliğində artan roluna toxunan spiker Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsini, müharibənin qadınlar üçün təsirlərini və münaqişələrin qarşısının alınmasında, münaqişələrin tənzimlənməsində və davamlı sülh səylərində rollarını araşdıran əhəmiyyətli bir çərçivə kimi vurğulayıb. O, Azərbaycanda adıçəkilən qətnamənin həyata keçirilməsi üçün Milli Fəaliyyət Planı layihəsinin hazırlandığını bildirib.

Milli Məclisin Sədri bildirib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın qonşu Ermənistanın işğalı altında olub. Bu ərazilərdə bütün şəhər və kəndlərimiz, tarixi, mədəni və dini abidələrimiz dağıdılıb. Öz doğma yurd-yuvalarından qaçqın və məcburi köçkün düşmüş 1 milyona yaxın soydaşımızın 52 faizi qadınlardır. Sahibə Qafarova həmçinin Azərbaycanın 2020-ci ildə öz torpaqlarını erməni işğalından azad etməsindən sonra həmin ərazilərdə aparılan genişmiqyaslı bərpa işləri barədə məlumat verib. O bildirib ki, keçmiş məcburi köçkün ailələri artıq evlərinə qayıtmağa başlayıblar. Lakin Ermənistanın bu ərazilərdə basdırdığı çoxlu sayda mina bu prosesə ciddi maneədir. Sahibə Qafarova diqqətə çatdırıb ki, iki il əvvəl müharibə başa çatandan sonra mina partlayışları nəticəsində təxminən 270 azərbaycanlı həlak olub və ya ağır yaralanıb. Hazırda qadın və uşaqlar da daxil olmaqla geri qayıtmış məcburi köçkünlərin həyatı ciddi təhlükə altındadır. Mina problemi normal həyatlarını davam etdirməyə çalışan qadınlarımız üçün böyük bir sınaqdır. Milli Məclisin Sədri deyib ki, bu məsələ qadınlar, sülh və təhlükəsizlik haqqında qlobal gündəlikdə diqqətdə saxlanılmalıdır.

*"Azərbaycan"*

# Vyetnam Azərbaycanla əlaqələrin daha da möhkəmlənməsində maraqlıdır








**Noyabrın 21-də Milli Məclisin Sədri Sahibə Qafarova Kamboca Krallığına səfəri çərçivəsində Vyetnam Sosialist Respublikası Milli Assambleyasının Sədri Vuonq Din Hyu ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Milli Assambleyanın sədrini salamlayaraq Azərbaycanla Vyetnam arasında dostluq münasibətlərinin mövcud olduğunu bildirib. O, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasından 30 il keçdiyini deyərək, bu illər ərzində siyasi sahədə əlaqələrin inkişaf etdiyini qeyd edib. Spiker ikitərəfli münasibətlərin möhkəmləndirilməsində yüksəksəviyyəli qarşılıqlı səfərlərin mühüm rolunu vurğulayıb.

Görüşdə Milli Məclisin Sədri Azərbaycanın beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində müxtəlif təşəbbüslərlə çıxış etdiyini bildirib. O, Qoşulmama Hərəkatının sədri olan Azərbaycanın hərəkatın Parlament Şəbəkəsinin yaradılması təşəbbüsünün üzv dövlətlər tərəfindən dəstəkləndiyini bildirib. Spiker Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin 2021-ci ilin noyabrında Madriddə keçirilən təsis konfransı və bu ilin 30 iyun - 1 iyul tarixlərdə Azərbaycanda keçirilən Bakı konfransı haqqında geniş məlumat verib. Sahibə Qafarova deyib ki, Bakı konfransında 40-dan çox ölkə və 8 beynəlxalq təşkilatın nümayəndələri iştirak ediblər. Vyetnam Milli Assambleyasının üzvü Madriddə keçirilən təsis konfransında iştirak edib.

Milli Məclisin Sədri bildirib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin növbəti konfransının gələn ilin martında Manamada Parlamentlərarası İttifaqın 146-cı Assambleyası çərçivəsində keçirilməsi planlaşdırılır. O, Parlament Şəbəkəsinin qarşısında duran vəzifələr və növbəti dövr üçün görüləcək işlər barədə geniş məlumat verib.

Söhbət zamanı Milli Məclisin Sədri dövlətlərarası münasibətlərin gücləndirilməsində parlamentlərarası əlaqələrin rolunu qeyd edib, belə görüşlərin bu sahədə təcrübə və informasiya mübadiləsi baxımından təqdirəlayiq olduğunu deyib. Sahibə Qafarova deputatlarımızın parlamentlərarası dostluq qrupları çərçivəsində əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb, eyni zamanda beynəlxalq müstəvidə qarşılıqlı faydalı əməkdaşlığın önəmindən danışıb. O, müxtəlif dövlət qurumları arasında əməkdaşlıqla yanaşı, ölkəmizin hakim partiyası Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında da məhsuldar əlaqələrin mövcud olduğunu diqqətə çatdırıb.

Görüşdə spiker Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər, Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün bərpası, hazırda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən geniş bərpa və yenidənqurma işləri barədə də danışıb.

Vyetnam Sosialist Respublikası Milli Assambleyasının Sədri Vuonq Din Hyu ölkəsinin Azərbaycanla əlaqələrin daha da möhkəmlənməsində maraqlı olduğunu bildirib. O, ölkələrimiz arasında münasibətlərin tarixi köklərə söykəndiyini deyib və qeyd edib ki, əlaqələrimizin əsası Ho Şi Min və Heydər Əliyev tərəfindən qoyulub. Vuonq Din Hyu deyib ki, Azərbaycan bizim üçün dost ölkələrdən biridir. Bizim xarici siyasətimizin əsas prioritetlərimizdən biri ənənəvi dostluq münasibətlərinin olduğu ölkələrlə əməkdaşlığımızı daha da sıxlaşdırmaqdır.

Milli Assambleyanın Sədri qarşılıqlı əlaqələrin genişləndirilməsində parlamentlərin xüsusi rolunu vurğulayıb. Bu baxımdan deputatlarımız arasında mütəmadi olaraq görüşlərin təşkilinin, müxtəlif məsələlərlə bağlı fikir mübadiləsinin məqsədəmüvafiq olduğunu deyib. O, eyni zamanda beynəlxalq parlament qurumlarında əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini söyləyib.

Vyetnam Milli Assambleyasının Sədri deyib ki, ölkəsi Qoşulmama Hərəkatının üzvü kimi bu təşkilat çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət verir. O cümlədən təşkilatın Parlament Şəbəkəsi çərçivəsində də iştirak edir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycanın xarici işlər naziri ilə İtaliyanın Baş nazirinin müavini arasında telefon danışığı olub





Noyabrın 21-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İtaliya Respublikasının Baş nazirinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov ilk növbədə həmkarını bu yüksək vəzifəyə təyin olunması münasibətilə təbrik edib və ona fəaliyyətində uğurlar arzulayıb. Nazir iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsində baş tutan ali və yüksəksəviyyəli səfərlərin, xüsusilə İtaliya Prezidenti Sercio Mattarellanın 2018-ci ildə Azərbaycana, Prezident İlham Əliyevin 2020-ci ildə və cari ilin sentyabr ayında İtaliyaya, habelə sabiq xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Mayonun 2022-ci ildə ölkəmizə səfərlərinin mühüm rol oynadığını qeyd edib.

Ölkələrimiz arasında mövcud çoxölçülü strateji tərəfdaşlıq münasibətlərinin və siyasi dialoqun "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" çərçivəsində daha da genişlənməsinin vacibliyi vurğulanıb. Nazir iki ölkə arasında təhsil sahəsində əməkdaşlıqdan bəhs edərək, İtaliya xarici işlər nazirinin Bakıya səfəri zamanı təməli qoyulmuş İtaliya-Azərbaycan Universitetinin əhəmiyyət daşıdığını bildirib. Enerji sahəsində əməkdaşlığın inkişafından məmnunluq qeyd edilməklə yanaşı, sonuncu dəfə Romada keçirilmiş Azərbaycan-İtaliya iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının Bakıda təşkilinə hazırlıq ifadə olunub.

Ceyhun Bayramov eyni zamanda Vətən müharibəsindən sonra postmünaqişə dövründə aparılan bərpa və quruculuq işləri, Ermənistanla normallaşma və sülh prosesi barədə məlumat verərək, İtaliyanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə göstərdiyi dəstəyə görə dərin minnətdarlığını bildirib. Həmçinin İtaliyanın işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərində ilk iştirak edən ölkələrdən olduğu diqqətə çatdırılıb. Nazir Antonio Tayani Azərbaycanla İtaliya arasında strateji dialoq və əməkdaşlıqdan məmnun olduqlarını vurğulayıb. İtaliyanın bölgəmizdə sülh və sabitliyə daim dəstək verdiyi bildirilib. Nazir energetika ilə yanaşı, təhsil və mədəniyyət sahəsində də geniş əməkdaşlıq perspektivlərinin olduğunu diqqətə çatdırıb.

Tərəflər Azərbaycan ilə İtaliya arasında iqtisadi sahədə səmərəli əməkdaşlıq əlaqələrinin mövcudluğunu, bu xüsusda İtaliyanın ölkəmizin ən böyük ticarət tərəfdaşı olduğu qeyd ediblər. Azərbaycanın isə İtaliyanın ən böyük enerji təchizatçılarından biri olduğu məmnunluqla bildirilib. Enerji sahəsində əməkdaşlığın genişləndirilməsində "Cənub qaz dəhlizi"nin və onun tərkib hissəsi olan TAP qaz boru kəmərinin əhəmiyyəti vurğulanıb.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib. Nazir Ceyhun Bayramov İtaliya xarici işlər nazirini ölkəmizə səfərə dəvət edib.

# "Siyasi partiyalar haqqında" qanun layihəsinin yenilənmiş variantı Milli Məclisin internet səhifəsinə yerləşdirilib

Xəbər verildiyi kimi, Milli Məclisdə parlamentdə təmsil olunan bütün siyasi partiya nümayəndələrinin müraciəti əsasında "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi hazırlanıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sənədin ictimai əhəmiyyətini nəzərə alaraq qanun layihəsi ilə bağlı siyasi partiyaların, Qeyri-Hökumət Təşkilatlarının, politoloqların və sosial media nümayəndələrinin iştirakı ilə ictimai dinləmələr keçirilib.

Bu dinləmələrdə və ictimai müzakirələrdə qanun layihəsi ilə bağlı verilən təkliflər, səslənən fikirlər, qeydlər nəzərə alınmaqla qanun layihəsinin yenilənmiş variantı Milli Məclisin internet səhifəsinə yerləşdirilib.

Qanun layihəsinin yenilənmiş variantı ilə aşağıda göstərilən keçiddən istifadə edərək tanış olmaq olar.

https://meclis.gov.az/news-layihe.php?id=1880&lang=az&par=0

*"Azərbaycan"*

# Milyonlarla insanın qanını tökən bir ölkənin ədalətdən danışmağa haqqı çatmır

*Haqdan, ədalətdən danışmaq üçün gərək mənəvi haqqın ola. Bu günün və keçmişin ləkəli olmaya. Öz gözündə tiri görməyənlərin başqasının gözündə tük axtarması olduqca əcaib görünür. Ədalət günəş kimidir.*



Qarşısını nə qaranlıq ala bilər, nə də tarixi keçmişi qara ləkələrlə zəngin olan Fransa. Bu bir həqiqətdir ki, 30 il əvvəl Fransanın cidd-cəhdlə himayə etdiyi Ermənistan tərəfindən müharibəyə cəlb olunmuşduq. Ermənistan əzəli və əbədi torpaqlarımızın 20 faizdən çoxunu işğal edib xarabazarlığa çevirmişdi. Minlərlə hektar ərazilərimizi ölü zonaya çevirib minalamışdır. Azərbaycanlı olduqlarına görə yüz minlərlə insanımızı öz dədə-baba torpaqlarından deportasiya etdilər.

Bircə faktı xatırlatmaq yerinə düşər: 1989-cu ildə Spitakda zəlzələdən zərərçəkənləri xilas etməyə gəlmiş fransız xilasediciləri torpağın altından ağzı qaynaq edilmiş borunun içində doldurulub diri-diri basdırılan soydaşlarımızın cəsədlərini tapanda dəhşətə gəliblər. Əli milyonlarla insanın qanına batmış Fransanın, onun prezidenti Emmanuel Makronun Ermənistanın "vəkili" kimi çıxış etməsində təəccüblü heç nə yoxdur. Atalar doğru deyib ki, dost-dosta tən gərək. Ermənistan bəlkə də fransızların Əlcəzairdə törətdikləri vəhşilikləri tam tətbiq edə bilməyib. Ona gücü, imkanı çatmayıb. 10 milyondan çox insanı qan gölündə boğan bir ölkənin prezidentinin insan haqlarından, haqdan, ədalətdən danışması ağ paltara vurulmuş qara yamaq kimi eybəcər görünür. Əgər bacarsa Fransa bu gün daha çox susmağa haqq etməlidir.

İstər insanlar, istərsə də dövlətlər olsun, riyakarlıq etməməlidirlər. Özü də riyakarlığı böyük, "mədəni" bir dövlətin prezidenti edəndə bu daha biabırçı, daha iyrənc görünür. İllərdir ki, problemin həlli üçün vasitəçilik edən, Minsk qrupunun həmsədri olan bir dövlətin başçısının belə davranışı qətiyyən qəbuledilməzdir.

Biz bu riyakarlıqla ilk dəfə rastlaşmırıq. Fransa öz qərəzli mövqeyini dəfələrlə açıq-aşkar sərgiləyibdi. Bu ölkə "Dağlıq Qarabağın" müstəqilliyinin tanınması ilə bağlı sənədi əvvəlcə senatda, sonra isə Milli Assambleyada qəbul etmişdi.

İkinci Qarabağ müharibəsi başlayan gün və daha sonra iki dəfə E.Makron Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edib hərbi əməliyyatları dayandırmağı "istəmişdi". O, həm də əsassız yerə Azərbaycan tərəfdən, guya, muzdluların döyüşməsi barədə yalan informasiya yayaraq dünya ictimaiyyətini məqsədli şəkildə çaşdırmağa çalışmışdı.

İkinci Qarabağ müharibəsi Azərbaycanın zəfəri ilə bitəndən sonra E.Makron Dağlıq Qarabağ ərazisinin Azərbaycan torpaqları olduğunu etiraf da etmişdi. Belə ki, o, 21 noyabr 2020-ci ildə Parisdəki "Hayastan" pan-erməni fondunun nümayəndələri ilə görüşü zamanı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı suala cavab olaraq Qarabağ bölgəsinin illərdir Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisi olduğunu demişdi. Amma necə deyərlər, yalançıdan yaddaş, qərəzkardan ədalət gözləmək olmaz

2022-ci il oktyabrın 12-də "France-2" telekanalına müsahibə verən Makron Fransanın Ermənistanla xüsusi münasibətlərinin olduğunu, guya, Ermənistanın hər zaman regionda sülh və firavanlıq uğrunda mübarizə aparması ilə "əsaslandıraraq" demişdir ki, "iki il əvvəl Ermənistan Dağlıq Qarabağ adlanan, beynəlxalq səviyyədə tanınmayan, Azərbaycanın ortasında yerləşən mübahisəli ərazidəydi. Azərbaycan dəhşətli, çoxsaylı itkilərlə nəticələnən müharibəyə başladı və bu ərazini tutdu".

Azərbaycan bu ilin sentyabrında təmas xəttində düşmənin təcavüz əməllərinin qarşısını almaq üçün haqlı olaraq əməliyyat keçirib. Torpaqlarımıza yenidən basqın etməyə hazırlaşan Ermənistan ordusunun mövqelərini darmadağın edib. E.Makron bu ilin sentyabrında Ermənistanla Azərbaycan arasındakı silahlı toqquşmadan bəhs edərkən də Azərbaycanı, guya, dəhliz açmaq üçün sərhəddə bir neçə hücum əməliyyatı keçirməkdə ittiham edib. E.Makron məgər bilmir ki, Ermənistanın 1992-1994-cü illərdə həyata keçirdiyi işğallar nəticəsində iki ölkə arasında sərhəd xətti dəqiqləşməyib. Axı Azərbaycan tərəfi bütün dünyanın gözü qarşısında Ermənistandan sərhədlərin dəqiqləşdirilməsini tələb edir.

44 günlük Vətən müharibəsində Azərbaycan öz torpaqlarını düşmən işğalından azad edib. Bu gün azad olunan torpaqlarda geniş quruculuq, abadlıq işləri gedir. Bir Fransa, bir Emmanuel Makron yox, min Makron olsa belə, Azərbaycan minlərlə şəhid verib düşmən işğalından azad etdiyi öz tarixi torpaqlarında möhkəmlənir. Bunu Emmanuel Makron da, Fransa parlamentariləri də yaxşı bilsinlər. Yaxşı olar ki, Fransa prezidenti öz yerində otursun. Ermənistanla cüt bacı olub, üstümüzə gəlməsi olduqca eybəcər görünür.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## 40 il öncə Ulu Öndər Heydər Əliyev Sov.İKP MK-nın Siyasi Bürosuna üzv seçildi



# Kremldə ucalan şanlı Azərbaycan bayrağı

**Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçilməsindən 40 il ötür. Heydər Əliyevin 1982-ci il noyabrın 22-də Kommunist partiyasının və ümumilikdə sovet dövlətinin siyasi kursunu müəyyənləşdirən ən ali orqanın üzvü seçilməsi, noyabrın 24-də isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi xalqımızın Ulu Öndərinin öz vətəninə uğurlu rəhbərliyinin məntiqi nəticəsi idi. Heydər Əliyevin sovet dövlətinin ali rəhbər strukturlarına irəli çəkilməsi həm də bütövlükdə Azərbaycanın, xalqımızın nailiyyəti idi.**

### Aqrar ölkədən sənaye respublikasına…

1969-cu ildən Azərbaycana rəhbərlik edən Heydər Əliyevin bu vəzifədə həyata keçirdiyi tədbirlərin, apardığı islahatların nəticəsi olaraq əldə olunan uğurlar respublikamızın sovet dövrü tarixinin qızıl səhifələridir. Heydər Əliyev ilk gündən respublikamızın problemlərini, çətinliklərini düzgün və obyektiv şəkildə müəyyənləşdirməklə, onların aradan qaldırılması, həlli üçün böyük qətiyyət və prinsipiallıq nümayiş etdirirdi. Bütün bunların nəticəsi kimi hələ Ulu Öndərin fəaliyyətinin ilk vaxtlarından respublikaya vətənini və xalqını sevən bir şəxsin rəhbərlik etdiyi göz önündə idi.

Zəngin iqtisadi potensialına rəğmən, buna qədər ümumi məhsul istehsalına görə ittifaqın geridə qalmış respublikalarından olan, daha çox kənd təsərüfatı ilə tanınan Azərbaycan məhz Ulu Öndərin sayəsində ən qısa zamanda qabaqcıl sənaye respublikasına çevrilmişdi. Artıq 1980-ci ildə sənaye məhsulu istehsalının həcmi 1970-ci illə müqayisədə 2,9 dəfəyə qədər artmışdı. Sənayenin maşınqayırma sahəsində məhsul buraxılışının həcmi 5,3 dəfə artmışdı. Bu dövrdə kimya və neft-kimya sənayesində 3 dəfədən çox, yeyinti sənayesində 4 dəfədən çox artım qeydə alınmışdı. Bununla yanaşı, Ulu Öndərin həyata keçirdiyi tədbirlər aqrar sferada da məhsul artımı ilə müşayiət olunmuşdu. Belə ki, pambıqçılıq, taxılçılıq, üzümçülük, tütünçülük, bağçılıq, bostan və tərəvəzçilik, eləcə də heyvandarlıq məhsullarının istehsalı 1969-cü ilə nisbətən 1982-ci ildə 2,5 dəfədən çox artmışdı.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində neft sənayesi özünün yeni inkişaf dövrünə qədəm qoymuş, elektrik enerjisinin istehsalı əvvəlki dövrlərlə müqayisədə artmış, Sumqayıtda yeni kimya müəssisələri yaradılmışdı. Bu dövrdə respublikanın yol-nəqliyyat infrastrukturu da inkişaf etmiş, yeni avtomobil və dəmir yolu xətləri tikilib istifadəyə verilmişdi.

Bakının sürətli inkişafı da Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrünə təsadüf edir. Məhz Ulu Öndərin vətən sevgisinin nəticəsi idi ki, Bakı şəhəri əhəmiyyətli dərəcədə böyümüş, yeni metrostansiyalar inşa olunmuş, paytaxtın mənzil fondu artmışdı. Ümumilikdə isə 1971-1982-ci illərdə respublikada 18 milyon 293 min kvadratmetr mənzil sahəsi tikilib istifadəyə verilmişdi. "Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı", - deyə Ulu Öndər Heydər Əliyev o illər barədə danışarkən deyib.

### Heydər Əliyev Moskvada çalışdığı dövrdə də Azərbaycanın inkişafına diqqət və qayğı ilə yanaşırdı

Heydər Əliyevin Azərbaycana uğurlu rəhbərliyi nəticəsində respublikamızın uğurları SSRİ miqyasında nümunəyə çevrilmişdi. Bunun məntiqi nəticəsi kimi Heydər Əliyev 1982-ci il 22 noyabrda Sov. İKP MK-nın Siyasi Büro üzvü seçildi. Həm Siyasi Büroya seçilməsi, həm SSRİ kimi nəhəng bir dövlətin Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi Heydər Əliyevin böyüklüyünün təcəssümü idi. Bütün bunlar Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafının təsdiqi idi. Heydər Əliyevin SSRİ rəhbərliyinə irəli çəkilməsi xəbəri Azərbaycanda da sevinclə qarşılanmış, bayram əhvali-ruhiyyəsi yaratmışdı. Əlbəttə ki, bir azərbaycanlının SSRİ-nin rəhbərliyində təmsil olunması qürurdoğuran hal idi.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi bir çox sahələr Heydər Əliyevin nəzarəti altında idi. Ulu Öndər SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edirdi. Məhz Heydər Əliyevin təcrübəsi, yüksək təşkilatçılıq qabiliyyəti nəticəsində həmin sahələrdə ittifaq üzrə yüksək göstəricilər əldə olunmuşdu. Ulu Öndərin xarici ölkələrə səfərləri, Moskvada xarici dövlətlərin rəsmiləri ilə keçirdiyi görüşlər isə SSRİ-nin xarici əlaqələrinin inkişafında böyük rol oynamışdı. Çünki Heydər Əliyevin şəxsində isə bütün dünya həm də Azərbaycanı və xalqımızı daha yaxından tanıdı.

Ümummilli Lider Heydər Əliyev Moskvada çalışdığı dövrdə də Azərbaycanın inkişafına xüsusi diqqət və qayğı ilə yanaşdı. Xalqa və doğma Vətənə bağlılığın nəticəsi idi ki, Ulu Öndər əlində olan bütün imkanlardan respublikamızın yüksəlişi üçün səmərəli şəkildə bəhrələndi. İttifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılmasına, bir sıra ittifaqmiqyaslı layihələrin Bakıya yönəldilməsinə nail oldu. Bu mənada Heydər Əliyevin sovet dövlətinin ali rəhbərliyində təmsil olunması Azərbaycanın da qarşısında yeni uğurlar açmışdı.

Heydər Əliyevin qətiyyəti, vətənpərvərliyi nəticəsində ermənilərin Dağlıq Qarabağın və Azərbaycanın digər ərazilərinin Ermənistana birləşdirilməsi ilə bağlı niyyətləri o dövrdə baş tutmamışdı. Hələ Azərbaycana rəhbərlik etdiyi dövrdə Ulu Öndər Ermənistanın bütün iddialarının qarşısını almışdı. Moskvada işləyərkən də Heydər Əliyev Azərbaycanı layiqincə qorudu, ermənilərin iddialarının baş qaldırmasına imkan vermədi. Heydər Əliyevin 1987-ci ilin oktyabrında Siyasi Büronun və Mixail Qorbaçovun yeritdiyi siyasi xətə etiraz olaraq tutduğu vəzifələrdən istefa verdikdən sonra ermənilər Azərbaycana qarşı açıq şəkildə ərazi iddialarını irəli sürdülər.

Heydər Əliyev uzaqgörən siyasi xadim, xalqının yanında olan böyük şəxsiyyət idi. Heydər Əliyev vəzifələrindən istefa verdikdən sonra da xalqının yanında oldu, sovet rəhbərliyinin Azərbaycana qarşı haqsızlıqlara, xalqımıza qarşı törətdiyi cinayətlərə görə etiraz səsini ucaltdı. Ulu Öndər öz dühası ilə xalqımızın milli-azadlıq mücadiləsini gücləndirdi, Azərbaycanı müstəqilliyə aparan yollarda tarixi xidmətlər göstərdi. Bu tarixi missiyanın davamı kimi Heydər Əliyev həm də müstəqilliyimizi qorudu, müasir Azərbaycan dövlətinin banisinə, xalqımızın Ümummilli Liderinə çevrildi.

Bu gün Ulu Öndərin ruhu şaddır. Çünki Prezident İlham Əliyev Azərbaycana bəxş etdiyi uğurlarla, qələbələrlə həm də Ümummilli Lider Heydər Əliyevin arzularını həyata keçirir, ideyalarının gerçəkləşməsini layiqincə təmin edir. Heydər Əliyevin təməllərini yaratdığı inkişaf İlham Əliyevin rəhbərliyi ilə qətiyyətlə və uğurla davam edir. Azərbaycanın tarixinin ən qüdrətli dövrünü yaşaması məhz bu inkişafın təntənəsidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# "Ruhlar şəhəri" böyük quruculuq məkanına çevrilir

**Hər zaman Ağdama, ağdamlılara böyük dəyər verən Ümummilli Lider Heydər Əliyev demişdir: "Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz". Ulu Öndərin bu fikrini tarixi zərurət kimi qiymətləndirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Qarabağı işğaldan azad etməyi özü üçün ali hədəfə çevirdi.**









Qarabağ zəfərini reallaşdırmaqla ata vəsiyyətini məsuliyyətli oğul kimi şərəflə yerinə yetirərək övlad xoşbəxtliyinə qovuşmaq sevincini yaşadı.

İlham Əliyev bu sahilsiz sevinci özü tək yaşamadı. Müzəffər Ali Baş Komandan 30 ildən bəri qələbə həsrəti ilə yaşayan uşaqdan-böyüyə bütün xalqa yaşatdı bu sevinci. Mahir sərkərdə qüdrətilə, xalqdan aldığı yenilməz güclə, Azərbaycan əsgərinin qəhrəmanlığı ilə düşməni, erməni işğalçılarını darmadağın etdi, Paşinyanı diz çökdürüb kapitulyasiya aktına qol çəkdirdi. Bununla qələbə təşnəsi olan bir xalqın əyilmiş qəddini düzəltdi, bizi 30 ilin xəcalətindən qurtardı.

Müharibə qansız-qadasız, qələbə qurbansız olmur. Dövlətimizin ərazi bütövlüyünü bərpa etmək uğrunda müqəddəs savaşda say-seçmə oğullarımız sinəsini düşmən gülləsinə sipər edib şəhid oldular, Azərbaycanın qəhrəmanlıq tarixinə çevrildilər. Neçə igid oğul isə bu müqəddəs savaşda yaralandı, sağlamlığını itirib şərəfli qazi statusu qazandı. Təbii ki, heç kim unudulmur, heç nə yaddan çıxmır. O üzdən qüdrətli dövlətimizin, qədirbilən xalqımızın qayğıkeşliyi, isti və doğma münasibəti sayəsində şəhid ailələri, qazilər bütöv bir xalqın məhəbbət və ehtiram ünvanına çevriliblər.

Yaxın keçmişin acı reallığı idi ki, müqəddəs yurd yerlərimizin işğal günlərini tarixin qara səhifələri kimi ürək ağrısıyla, gözyaşlarıyla qeyd etməyi ənənəyə çevirmişdik. Şuşaya, Ağdama, Laçına, Kəlbəcərə, Cəbrayıla, Qubadlıya... nə səsimiz çatırdı, nə əlimiz yetirdi. Erməni faşistləri havadarlarının köməyi ilə şəhərlərimizi, kəndlərimizi odlara qalayıb viran qoymuşdular. Erməni barbarlığı, bəşəriyyətin üz qarası olan bu mənfur etnosun vandallığı gözəlliyi dillərdə dastan olan Qarabağı və Şərqi Zəngəzuru, o sıradan Ağdamı sözün həqiqi mənasında "Qafqazın Xirosiması"na, "ruhlar şəhəri"nə çevirmişdi. Amma artıq 2 ildir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrəti, şanlı ordumuzun qəhrəmanlığı sayəsində yeni dövrün yeni tarixini yaşayırıq. Bir zamanlar rayonların işğal günlərini matəmə çevirən insanlar iki ildir doğma yurd yerlərinin işğaldan azad olunduğu günləri toy-bayram kimi qeyd edir, sevinc-qürur hissi keçirirlər.

❖ ❖ ❖

Budur, bir payız günündə Ağdama toplaşmışıq. Ağdamın erməni işğalından azad edildiyi 20 noyabr gününü qeyd etmək üçün bu müqəddəs diyara xoş əhvali-ruhiyyə ilə gəlmişik. Tədbir xoşməramlı olsa da, göz önündəki mənzərə - abad küçə və meydanlardan, yaraşıqlı binalardan, bağlı-bağçalı Ağdamdan qalan xarabalıqlardan xatirələr boylanır, könüllərin qəm-qüssə dolu sarı simi dillənir. Getdikcə dəyişən mənzərə isə ruhumuza sığal çəkir. Xarabalıqlar üzərində yeni, müasir, daha yaraşıqlı bir Ağdam ucalır. Çəkilən dəmiryol xətti, çoxzolaqlı, Avropa standartlarından da üstün asfalt yol, inşa olunan körpülər, yeni yaradılan sosial infrastruktur, vüsət alan təsərrüfat işləri içimizi qürurla doldurur.

❖ ❖ ❖

Noyabrın 20-də Ağdam Rayon İcra Hakimiyyəti və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə Ağdamın işğaldan azad olunmasının ikinci ildönümü münasibətilə tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə Şəhidlər xiyabanını ziyarət etdilər, 44 günlük müharibədə şəhidlik zirvəsinə ucalıb əbədiyyətə qovuşan oğulların adları həkk olunmuş lövhənin qarşısına tər qızılgüllər düzdülər, ruhlarına dualar oxudular.

Ağdam Konfrans Mərkəzində gerçəkləşən tədbirdə öncə Dövlət himni səsləndirildi, şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov tədbir iştirakçılarını salamlayaraq 44 günlük Vətən müharibəsində qazanılan qələbədən, Ağdam şəhərində aparılan yenidənqurma və bərpa işlərindən danışdı.

Sonra Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov rayon ictimaiyyətinin Prezident İlham Əliyevə ünvanladığı müraciəti səsləndirdi.

Tədbirin bədii hissəsi tanınmış incəsənət ustalarının təqdimatında vətənpərvərlik ruhlu nəğmələrlə davam etdi.

❖ ❖ ❖

Tədbirə qatılanların sosial tərkibi fərqli olsa da, hamı böyük zəfərdən doğan sevincə, yüksək əhvali-ruhiyyəyə köklənmişdi. Üzlərdən təbəssüm süzülür, baxışlardan fərəh yağırdı. Yüksək çinli dövlət məmuru da, tədbirə yaraşıq verən hərbçi də, bu müqəddəs diyarın gözəlliyindən ilham alan sənətçi də, qürur hissi keçirməyə hamıdan çox haqqı olan şəhid valideyni də bu gün dünyada söz sahibinə çevrilən qalib Azərbaycan dövlətinin vətəndaşı olduqları üçün qürur hissi keçirir, bu sevinci onlara yaşadanlara, müqəddəs vətən torpaqlarını düşmən işğalından azad edən igid oğullarımıza xoş arzular ünvanlayırdılar.

Qarabağ şəhidi, Milli Qəhrəman Allahverdi Bağırovun qızı Aynur xanım da tədbir iştirakçıları arasında idi. Həkimdir, Müdafiə Nazirliyinin hərbi hospitalında çalışır. Zərif çiyinlərində mayor paqonu daşıyır.

- Çox şükürlər olsun ki, Allah bu günləri bizə qismət elədi. Atalarının ad-sanı, qəhrəmanlığı, xeyirxah əməlləri ilə fəxr etməyə haqqı olan övladları xoşbəxt sayıram. Elə hesab edirəm ki, atam mənim üçün heç zaman tükənməyən bir zəngin xəzinə qoyub. O, Ağdamı, vətənini çox sevirdi. Kaş Ağdamın bu gününü, ermənilərin necə rəzil olduqlarını görə biləydi. Elə bilirəm ki, indi onun ruhu burada - başımızın üstündədir. İndi bizimlə bərabər o da sevinir. Aylar, illər keçəcək, Ağdam yenə əvvəlki ağ günlərinə qovuşacaq. Vətən sevdalı oğullar Qarabağı, Şərqi Zəngəzuru erməni faşistlərindən necə qəhrəmanlıqla azad ediblərsə, elə hünərlə də şəhərlərimizi, kəndlərimizi yenidən, həm də daha gözəl, daha yaraşıqlı tikib-quracaqlar.

Bu gün bizə qürur verən bu möhtəşəm zəfərin qazanılmasında qəhrəmanlığı dillərdə dastan olan Azərbaycan əsgərinin rolu hər zaman, dönə-dönə minnətdarlıqla anılır. Bəs onu dünyaya gətirən, boya-başa çatdıran, vətənə məhəbbətlə böyüdən, arxasınca bir cam su atıb "Vətən sənə əmanət, oğul!" deyib cəbhəyə yola salan, oğlu şəhid olanda "təki Vətən yaşasın!" deyən Ana hamıdan üstün qəhrəman deyilmi?! Ürəkdağlayan səhnələrə necə dözdük, İlahi! Nələr gördük... Şəhid balasının tabutunu zəif çiyninə qaldırıb gözyaşlarını ürəyinə axıdan Ana! Zəif çiynində ağır "yük" kişilərlə bərabər addımlayan Ana! Dərddən ağarmış saçlarından, kədərli çöhrəsindən oxunurdu dərdinin ağırlığı, sanki ürəyinə qüssə-qəm, başına qar yağırdı. Neçə vaxtdır oğul yolu gözləyirdi, şirin xəyallar qurub "Vağzalı"ya süzürdü. Gözaltı elədiyinə bir üzük də almışdı. Bütün bunlardan sonra Ana oğul tabutuna çiyin verəndə niyə dünya dağılmadı? Niyə günəş qaralmadı? Kim tərsinə fırladırdı axı çərxi-fələyi? Hünərin var bu Ananın gözünün içinə bax! Şimşəklər oynayacaq, ildırımlar çaxacaq! Onun çöhrəsindəki o danışan cizgilər sanki qəhrəmanlıq dastanının odlu sətirləridir... Gül qoxulu nəfəsi müqəddəs şəhidlərin doğma xatirəsidir...

Şəhid anası Xatirə Qurbanova ilə həmsöhbət olduq, qəhrəman oğlu Emil Qurbanovdan söz açdıq:

- Oğul düşmən çəpəridir. Fəxr edirəm ki, tərbiyə verib böyütdüyüm oğul vətənin dar günündə düşmən qabağına kişi kimi çıxdı, ər kimi döyüşdü. Torpağımızın bütövlüyünü, ana-bacıların namusunu, qeyrətini qorudu. Amma nə etmək olar ki, qələbə qurbansız qazanılmır. Oğlum vətənə qurban oldu. Qismət beləymiş. Təsəllim odur ki, o, şərəfli yol seçdi. Adını dövlətin, xalqın tarixinə yazdı. Sağ olsun Prezidentimiz İlham Əliyev. Hər məqamda onların qəhrəmanlığını minnətdarlıqla xatırlayır. Bir ana kimi dövlətimizdən çox razıyam. Rayon rəhbərliyi də bizə hər zaman qayğıkeşlik göstərir, həssaslıqla yanaşır.

Həzin payız küləyi qələbə ruhlu musiqinin şirin sədalarını ətrafa yayırdı. Elə bil bu xoş təmasdan torpaq da xoşhal olub rahat-rahat nəfəs alırdı. Budaqlardakı qızılı rəng almış yarpaqlar isə asta-asta yellənir, sanki bayram sevinci yaşayırdı. Həmin gün təbiət də, insanlar da xoş duyğuların qanadındaydı elə bil. Bu məqamda Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənovun fərəhli çöhrəsindən demək istədiyi sözləri oxumaq heç də çətin deyildi:

- Hamı kimi mən də özümü xoşbəxt sayıram. Bu xoşbəxtliyi bizə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin böyük sərkərdə qüdrəti və qəhrəman Azərbaycan Ordusu bəxş etmişdir. Məncə, qələbə sevincini yaşamaqdan üstün bir hiss yoxdur. Döyüşlər qurtarsa da, düşmən kapitulyasiya aktına qol çəkməyə məcbur edilsə də, erməni təxribatları hələ davam edir. Ermənistanın revanşist qüvvələri qisas üçün alışıb-yanırlar. Heç şübhəsiz, Prezident İlham Əliyevin yenilməz iradəsi, müdrik diplomatiyası onların bu qanlı niyyətini kor gözlərində qoyacaq.

*Dünən olduğu kimi, ağdamlılar bu gün də Prezidentin ətrafında sıx birləşiblər. İndi döyüş yerimiz təsərrüfat işləri, Ağdamın tikinti-quruculuq meydançalarıdır. Bu gün hər kər öz işinin başında məqsəd aydınlığı, könül xoşluğu ilə çalışır, Qələbəmizi, ərazi bütövlüyümüzü əbədi etməyə səy göstərir. Dövlətin də, xalqın da amalı Ağdamı ağ günlərinə qaytarmaqdır.*

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# "Ağdamlılar hər zaman Sizinlədir"

## Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevə

### Ağdam rayon ictimaiyyəti nümayəndələrinin MÜRACİƏTİ

**Möhtərəm cənab Prezident!**

Sizin qüdrətli hərbi komandanlığınız və mahir diplomatik istedadınız sayəsində işğaldan azad edilmiş Ağdam şəhərində bu gün Xilas - Zəfər gününü böyük qürur, sevinc və şəxsinizə sonsuz minnətdarlıq, əbədi ehtiram hissi ilə qeyd edirik.

Ağdam rayonunun 200 mindən artıq əhalisi adından bu əziz iftixar günümüzdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ruhunu, həmçinin I və II Qarabağ müharibələrində qəhrəmancasına şəhid olmuş həmvətənlərimizin xatirəsini ehtiramla anırıq.

**Cənab Prezident!**

Ulu Öndər Heydər Əliyevin Qurtuluş missiyası nəticəsində ağdamlılar həmişə olduğu kimi, bu gün də Heydər Əliyev ideyalarının fəal icraçıları, sadiq əsgərləridir.

Ulu Öndər ağdamlıların xeyirxahı və himayədarı kimi məcburi köçkün əhalimizin sosial problemlərinin, mənzil çətinliklərinin və digər qayğılarının həllini üzərinə götürdü, böyük diqqətlə həyata keçirdi, dərdimizə məlhəm oldu. Bu gün bu missiyanı Siz layiqincə davam etdirir və hər bir azərbaycanlının Prezidenti olduğunuzu məqsədyönlü fəaliyyətinizlə təsdiq edirsiniz.

**Möhtərəm cənab Prezident!**

Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində məcburi köçkünlərin qayğılarına aid kompleks fəaliyyət proqramı ilə çıxış edərək, bizim birmənalı, istisnasız dəstəyimizi qazandınız. Ağdamlılar Sizə 19 ildir ki, Heydər Əliyev qədər inanır, güvənir, etimad bəsləyir.

Bu müddətdə yüz minlərlə qaçqın və məcburi köçkünün, o cümlədən on minlərlə ağdamlının çadır şəhərciklərindən müasir yaşayış komplekslərinə köçürülməsini, onların məşğulluq problemlərinin, sosial çətinliklərinin həllini təmin etdiniz, onlara yeni ruh, yaşamaq həvəsi, ən əsası isə, qələbəyə böyük inam bəxş etdiniz.

Ötən illər ərzində Ağdamın işğal altında olmayan ərazilərində dəfələrlə səfərlərdə oldunuz, dəstəyinizlə onlarla müəssisə, sosial, mədəni və ictimai infrastruktur obyektləri istifadəyə verildi. Hər səfərinizdə, hər açılış mərasimində qətiyyətlə əmin etdiniz ki, vaxt gələcək, bu obyektləri təcavüzdən qurtulan Ağdamda da açacaq, orada da qırmızı lentlər kəsəcəksiniz.

**Müzəffər Ali Baş Komandan!**

Sizin Ağdamın, Qarabağın, Şərqi Zəngəzurun düşməndən azad ediləcəyinə etibarlı zəmin uğurlu diplomatiyanız, səmərəli fəaliyyətiniz sayəsində yarandı, gerçəkləşdi.

Zəfərə hamıdan çox Siz inanırdınız!

Zəfər üçün hamıdan çox Siz çalışırdınız!

Silahlı Qüvvələrimizə, xalqımıza olan sonsuz inamınız və bu məqsədlə həyata keçirdiyiniz misilsiz fəaliyyət nəticəsində, nəyi necə və nə vaxt edəcəyinizi dəqiq bilmə məharətiniz sayəsində 44 gün ərzində 30 illik münaqişəyə Siz son qoydunuz!

Bütün fövqəldövlətlərin iqtisadi, siyasi, hərbi dəstəyini onilliklər boyu davamlı alan təcavüzkar Ermənistanı təslimçilik aktını imzalamağa, bunun üçün yalvarmağa məhz Siz məcbur etdiniz. Uğur diplomatiyanızın məntiqi nəticəsi olaraq düşmən qarşınızda diz çökdü.

Şuşada, Ağdamda, işğaldan azad olunan digər rayonlarımızda Azərbaycan bayrağının dalğalanması Sizin qüdrətli hərbi sərkərdəlik qabiliyyətinizin təsdiqidirsə, Ağdamın, o cümlədən Kəlbəcərin, Laçının bir güllə atılmadan azad olunması bənzərsiz diplomatik strategiyanızın, siyasi müdrikliyinizin nəticəsidir.

Hər qarışında mina və düşmən tələsi olan, 27 il ərzində işğalçının 10 mərhələli güclü müdafiə istehkamı qurduğu Ağdamdan düşmənin müqavimətsiz qaçması Sizin şərəfli adınızı dünyanın hərbi, diplomatik və siyasi salnaməsinə əbədi həkk etdirdi!

**Möhtərəm cənab Prezident!**

Azadlıq bəxş etdiyiniz Qarabağda və Şərqi Zəngəzurda dərhal başlatdığınız quruculuq, bərpa, yenidənqurma fəaliyyətiniz artıq ilk uğurlu nəticələrini verir. Bu bölgələrdə istifadəyə verilən, inşa edilən "ağıllı kənd", çoxsaylı müəssisələr, sosial infrastrukturlar, artıq indidən dünyada ən təkmil tikintilər sırasına düşən yol-tunel layihələri xalqımızda böyük ruh yüksəkliyi yaradır, düşmənlərimizə və onun havadarlarına isə gözdağına çevrilir.

Siz Qarabağ və Şərqi Zəngəzurun ən qısa müddətdə bərpasının Möhtəşəm Qurucususunuz!

Bu günlərdə imzaladığınız "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" əminlik yaradır ki, Sizin Liderliyinizlə nəzərdə tutulduğundan da az müddətdə yüksək peşəkarlıq və məsuliyyətlə icra olunacaq.

Sizin Qarabağ və Şərqi Zəngəzurda ilk quruculuq işlərinə məhz Ağdamdan başlamağınız, ilk baş plan kimi məhz Ağdam şəhərinin quruculuq layihəsini təsdiq etməyiniz biz ağdamlılarda böyük qürur və iftixar doğurur. Əminik ki, əbədiyaşar liderimiz Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində Azərbaycanın ən inkişaf etmiş, müasir rayonlarından birinə çevirdiyi Ağdam Sizin şəxsi nəzarətiniz, doğma təəssübkeşliyiniz sayəsində artıq Qafqazın ən güclü iqtisadi-ticarət mərkəzlərindən biri kimi tanınacaqdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük qayğısı, himayəsi ilə Ağdamda həyata keçirilən çoxsaylı layihələr, Heydər Əliyev Fondunun icra etdiyi quruculuq işləri qədirbilən ağdamlılarda sonsuz minnətdarlıqla qarşılanır.

Gələn il Heydər Əliyevin ümumxalq sevgisi və coşqusu ilə qeyd ediləcək 100 illik yubileyi Ağdamda yeni infrastruktur obyektlərinin inşası, istifadəyə verilməsi ilə xüsusi əhəmiyyət kəsb edəcək, Ulu Öndərin ruhuna ehtiramın böyük nümunəsinə, Heydər Əliyev ideallarının təntənəsinə çevriləcəkdir.

**Möhtərəm cənab Prezident!**

Biz bu gün Ağdam şəhərində bu tədbiri keçirərkən bir tərəfdə təcavüzkarın 27 il ərzində "Qafqazın Xirosiması"na, "ruhlar şəhəri"nə çevirdiyi Ağdamın xarabalıqlarını ağrı ilə seyr edir, digər tərəfdə isə dünyanın ən müasir, modern üslubları ilə inşa olunan infrastrukturları qürurla seyr edirik.

Məhz bu mənzərə, qürurverici müqayisə Sizə olan əbədi məhəbbətimizi, etimadımızı, borcumuzu daha da möhkəmləndirir, Sizin Liderliyiniz ətrafında hələ uzun onilliklər boyu səfərbər olmağımızı zərurət kimi şərtləndirir.

Əminik ki, Sizin müəllifi olduğunuz Yeni Ağdam Yeni Azərbaycanın, Zəfərin, Quruculuğun ən mükəmməl rəmzlərindən biri olacaq!

Ağdamın işğaldan azad olunmasının ikinci ildönümü münasibətilə Sizi - Ağdamın Böyük Xilaskarını təbrik edir, Sizə möhkəm cansağlığı, şərəfli fəaliyyətinizdə uğurlar diləyirik.

**Qarabağ Azərbaycandır!**

***Müraciət Ağdamın işğaldan azad edilməsinin ikinci ildönümü münasibətilə keçirilən yığıncaqda qəbul edilmişdir.***

*20 noyabr 2022-ci il*

# 30,7 milyard manatlıq gəlir

## Dövlət büdcəsinin artımı sosial-iqtisadi inkişafımızın göstəricisidir

**"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda təsdiq edilib. Gələn ilin dövlət büdcəsi postmüharibə dövrünün çağırışlarına, həmçinin qlobal iqtisadi proseslərə uyğunlaşdırılıb.**







Layihədə dövlət büdcəsinin proqnozlaşdırılan gəlir və xərcləri Azərbaycanın müstəqillik tarixinin ən böyük göstəriciləridir. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

### 2023-cü ilin dövlət büdcəsi yeni reallıqlara uyğun tərtib edilib

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev deyib ki, tariximizin ən böyük büdcə layihəsinin postmüharibə dövrünə təsadüf etməsi ümumilikdə həyata keçirilən uğurlu daxili və xarici siyasətin, milli maraqlarımıza xidmət göstərən büdcə siyasətinin nəticəsidir. Büdcə layihəsinin strateji olaraq 3 böyük xərc hissəsindən birincisi sosialyönümlükdür. Dövlət büdcəsinin xərclərinin sosialyönümlüyünün təmin edilməsi Prezident İlham Əliyevin hökumət qarşısında qoyduğu ən mühüm tələblərdəndir. Dövlətin sosial amalı ondan ibarətdir ki, aztəminatlı ailələr, sosial müdafiəyə ehtiyacı olan vətəndaşlar dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdırlar.

"İkinci əsas istiqamət isə Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdış proqramı ilə bağlıdır. İşğaldan azad edilmiş ərazilərimizdə sosial iqtisadi infrastrukturun bərpa edilməsi, biznes üçün şəraitin yaradılması vacib olduğu üçün bu mövzu büdcə layihəsinin prioritetlərindəndir. Bu gün dövlətimiz həm Qarabağda və Şərqi Zəngəzurda böyük bərpa və quruculuq işlərini həyata keçirir, həm də əhalinin sosial müdafiəsinin gücləndirilməsi, milli təhlükəsizliyin təmin olunması, ordumuzun müdafiə qabiliyyətinin artırılması istiqamətində ciddi addımlar atır. Üçüncüsü isə, təbii ki, hərbiyə, milli təhlükəsizliyin qorunmasına, ordumuzun peşəkarlıq səviyyəsinin artırılmasına xidmət edən dövlət layihələrinin reallaşdırılması üçün proqnozlaşdırılan xərclərdir", - deyə deputat bildirib.

R.Quliyevin sözlərinə görə, praqmatik formada hazırlanan bu büdcə layihəsi Azərbaycanın iqtisadi inkişafına müsbət təkan verəcək: "Bu siyasət artıq 15 ildən çoxdur ki, həyata keçirilir. Təsəvvür edin, bir neçə milyon manatlıq dövlət büdcəsi ilə başlayan müstəqil Azərbaycanın gələn il üçün dövlət büdcəsi 33 milyardı ötüb. Bu, ölkəmizin artan maliyyə imkanlarından, dolayısı ilə isə dünyada artmaqda olan nüfuzumuzdan xəbər verir".

### Milli maraqlarımıza xidmət edən siyasət

Milli Məclisin deputatı Ceyhun Məmmədov qeyd edib ki, 2023-cü ilin dövlət büdcəsi Azərbaycanın müstəqillik tarixinin ən böyük büdcəsidir: "Azərbaycan bütün bu nəhəng uğurlarına 30 il ərzində nail olub. Lakin bu gün dünyada 100 illik müstəqillik tarixi olan ölkələr var ki, nə dövlət, nə də ordu qura biliblər. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin böyük uzaqgörənlik və müdrikliklə davam etdirdiyi siyasət nəticəsində Azərbaycan həm müstəqil dövlət kimi inkişafa, həm də güclü ordu qurmağa müvəffəq olub. Dövlətimiz bir tərəfdən Qarabağda və Şərqi Zəngəzurda böyük bərpa və quruculuq işlərini həyata keçirir, digər tərəfdən əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sağlamlığının qorunması, ölkəmizin təhlükəsizliyinin təmin olunması, ordumuzun müdafiə qabiliyyətinin artırılması istiqamətində ciddi addımlar atır. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasındadır".

Deputat dövlət büdcəsi barədə təkliflərini də səsləndirib. Qeyd edib ki, 2023-cü ilin dövlət büdcəsindən elmin maliyyələşdirilməsinə 228 milyon manat vəsait ayrılması nəzərdə tutulur. Burada təhsilə ayrılan vəsaitlə elmə ayrılan vəsait arasında böyük fərq açıq görünür. "Əlbəttə, təhsil sahəsi daha böyük vəsait tələb edir. Ancaq ali təhsil və elmi müəssisələrimizin tədqiqatyönümlü fəaliyyətinin dəstəklənməsi, maddi-texniki bazasının gücləndirilməsi, Vətən müharibəsində qələbə fonunda yeni tədqiqat əsərlərinin ərsəyə gətirilməsi, beynəlxalq konfransların keçirilməsi, sözügedən müəssisələrdə çalışan alim və tədqiqatçıların sosial durumunun daha da yaxşılaşdırılması məqsədilə elm sahəsinə ayrılan vəsaitin növbəti illərdə artırılması məqsədəuyğun olardı", - deyə o əlavə edib.

### Yeni sosial-iqtisadi mühit formalaşdırılır

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov qeyd edib ki, Prezident İlham Əliyevin müəllifi olduğu yeni inkişaf modeli əsasında Azərbaycan tərəqqi yolunda inamla addımlayaraq iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşayır: "Uğurla həyata keçirilən islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və xalqımızın maddi rifahının yüksəlməsini təmin edir. Prezidentimizin yeni iqtisadi quruculuq siyasətinin kökündə dövlətin milli inkişafının möhkəmlənməsi və birbaşa insan amili dayanır. Hazırda davam etdirilən islahatların əsas qayəsi də məhz bütün ölkə vətəndaşlarının sosial rifahının və layiqli həyat şəraitlərinin yaxşılaşdırılmasına yönəldilib".

Deputat deyib ki, Vətən müharibəsindən sonra yaranmış reallıqlar büdcə siyasətinə də yeni baxış formalaşdırıb. Azərbaycan Respublikasının 2023-cü il üçün dövlət və icmal büdcəsinin layihəsi də məhz qeyd olunan çağırışlar nəzərə alınmaqla hazırlanıb. Onun sözlərinə görə, 2023-cü il üçün dövlət büdcəsinin layihəsi Prezidentin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədlərindən irəli gələn çağırışlar, həmçinin qlobal iqtisadiyyatda gedən proseslərin təsirləri nəzərə alınmaqla tərtib olunub.

"2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 30,7 milyard manat proqnozlaşdırılır ki, bu da 2022-ci illə müqayisədə 1 milyard 522 milyon manat və yaxud 5,2 faiz çoxdur. Dövlət büdcəsinin xərcləri isə 33.3 milyard manat proqnozlaşdırılır. Bu da 2022-ci illə müqayisədə 996,2 milyon manat və ya 3,1 faiz çoxdur. 2023-cü ilin dövlət büdcəsinin xərclərinin əsas hədəfləri müdafiə və təhlükəsizlik, azad edilmiş ərazilərdə böyük quruculuq, iqtisadi artım və sahibkarlığın inkişafının dəstəklənməsi, həssas və aztəminatlı əhalinin sosial müdafiəsi, elm, təhsil, səhiyyə, sosial təminat və digər sahələrdə islahatların davamını təmin edən proqram və tədbirlərin maliyyələşdirilməsindən ibarətdir", - deyə o qeyd edib.

A.Hüseynov bildirib ki, növbəti illərdə ölkə sərhədlərinin toxunulmazlığının və davamlı mühafizəsinin təmin edilməsi, ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da gücləndirilməsi, silahlı qüvvələrin döyüş hazırlığının və peşəkarlığının yüksəldilməsi və sair istiqamətdə kompleks tədbir və layihələrin icrası xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə növbəti ilin dövlət büdcə layihəsində müdafiə və hüquq-mühafizə xərcləri 495,9 milyon manat artrılaraq 8 milyard 63 milyon manata çatdırılıb.

"Əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri üçün növbəti ilin büdcəsində 4 milyard 416 milyon manat vəsait proqnozlaşdırılır. Bu, cari ilə nisbətən 687 milyon manat və yaxud 18,4 faiz çoxdur. Ümumilikdə, növbəti ildə sosial sahədə müdafiə olunan xərclərin, o cümlədən əməyin ödənişi, təqaüd və pensiyalar, başqa sosial müavinətlər, şəhid ailələrinin, müharibə veteranlarının mənzil ehtiyaclarının qarşılanması, dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş dövlət proqramlarının maliyyə təminatı və digər bütün sosial proqramların reallaşdırılması ilə bağlı 2023-cü ilin dövlət büdcəsində əhəmiyyətli məbləğdə vəsait nəzərdə tutulub", - deyə deputat bildirib.

Müstəqillik dövrümüzdə sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyimiz uğurlar nəticəsində Azərbaycan iqtisadiyyatının artım tempinə görə dünyanın lider ölkələrindən birinə çevrilib. 2023-cü ilin dövlət büdcəsinin 33.3 milyard manat dəyərində proqnozlaşdırılması da bilavasitə düzgün iqtisadi siyasətin həyata keçrilməsi və dövlət nəzarəti ilə bağlıdır. Mütəxəssislərin fikrincə, dövlət büdcəsinin artım tempi iqtisadi təhlükəsizliyimizi daha da gücləndirir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# 2026-cı ilədək 280 min hektar ərazi minalardan təmizlənəcək

## Ermənistan Qarabağ və Şərqi Zəngəzurda bir milyondan çox mina basdırıb

"Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasındadır. İlkin hesablamalara görə, Ermənistan işğal zamanı bir milyondan çox mina basdırıb".

Oktyabrın 13-də Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Toplantısının plenar iclasında Prezident İlham Əliyevin səsləndirdiyi kimi, 30 illik işğal dövründə Ermənistan torpaqlarımızı mina tarlasına çevirib. Bu isə hazırda Azərbaycan dövlətinin Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirdiyi işlərin daha sürətli gedişatına və Böyük qayıdışa başlıca əngəl olaraq qalır. Çünki belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir: "Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır".

### 2020-2022-ci illərdə 57 min hektardan çox ərazi minalardan təmizlənib

İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub. Buna görə də Qarabağ və Şərqi Zəngəzurda quruculuq və bərpa işləri ilə əlaqədar genişmiqyaslı layihələr həyata keçirilir. Bu rayonların sürətlə dirçəlməsi, həmin ərazilərdə əhalinin dayanıqlı məskunlaşması, təhlükəsiz və yüksək həyat şəraitinin təmini üçün mühüm işlər gerçəkləşdirilir. Vətən müharibəsindən ötən ikiillik qısa zaman ərzində sözügedən iqtisadi rayonlarda xeyli iş görülüb, infrastruktur qurulub, yeni yollar çəkilib, tunellər salınıb, beynəlxalq hava limanları tikilib istifadəyə verilib, bütün şəhərlərin baş planları təsdiqlənib. Artıq bir neçə aydır ki, "ağıllı kənd" konsepsiyası ilə yenidən qurulmuş Zəngilanın Ağalı kəndinin sakinləri yeni həyata başlayıblar.

Azərbaycanın gücü və əzmi sayəsində Ermənistanın 30 il müddətində dağıdaraq viranəyə çevirdiyi bu yerlərə qısa zaman çərçivəsində yenidən həyat qaytarılıb.

44 günlük müharibədə işğalda olan ərazilərini azad edən Azərbaycan dərhal həmin yerlərin minalardan təmizlənməsinə də start verib.

Prezident İlham Əliyevin təsdiqlədiyi "İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdışa dair I Dövlət Proqramı"nda Azərbaycanda 2026-cı ilə qədər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi işlərinin davam etdirilməsi nəzərdə tutulub.

Sənədə əsasən, ərazinin minalardan təmizlənməsi üzrə işlərin davam etdirilməsi məqsədilə illik planların hazırlanması nəzərdə tutulub.

2020-2022-ci illərdə 57,6 min hektar ərazi minalardan təmizlənib. 2023-2026-cı illərdə 215 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılır. 2026-cı ilin sonunda 280 min hektar ərazi minalardan təmizlənmiş olacaq.

Bu işlər üzrə əsas icraçı Minatəmizləmə Agentliyi, digər icraçılar isə Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidmətidir.

### Ağdamın 23 faizi minalardan təmizlənib

Ermənistan 30 il ərzində işğal altında saxladığı digər şəhər və kəndlərimizdə olduğu kimi, tarmar etdiyi Ağdamda da hər daşın, qayanın altına mina döşəyib. Hazırda burada Ağdam şəhərinin Baş planına uyğun olaraq minatəmizləmə sahəsində işlər davam etdirilir. Artıq rayon ərazisinin 23 faizi minalardan təmizlənib.

Bu il oktyabrın 5-də Ağdamda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışı zamanı İlham Əliyev diqqətə çatdırdı ki, müharibənin başa çatmasından bəri təxminən 250 azərbaycanlı mina partlayışları nəticəsində həlak olub və ya ciddi xəsarət alıb. Təəssüf ki, bu rəqəm hər həftə artır. Yalnız ötən həftə 2 nəfər həlak olub, 3 nəfər ciddi xəsarət alıb: "Ermənilər işğal dövründə 1 milyondan çox mina basdırıb və Azərbaycan və azərbaycanlılara qarşı bu terror siyasəti davam edir. Bu yaxınlarda biz Laçın rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən İkinci Qarabağ müharibəsinin başa çatmasından sonrakı dövr ərzində basdırılmış 1400-dən çox minanı aşkarlayaraq zərərsizləşdirdik. Beləliklə, Azərbaycana qarşı aqressiya, Azərbaycana qarşı terror davam edir".

Ümumiyyətlə, Birinci və İkinci Qarabağ müharibələri dövründə Azərbaycanda 3 min 342 nəfər minalardan və partlamamış hərbi sursatdan zərər çəkib. Onlardan 574 nəfər həlak olub, 2 min 637 nəfər isə yaralanıb. 2020-ci il noyabrın 10-dan 2022-ci il oktyabrın 23-dək 266 nəfər minalardan və partlamamış hərbi sursatdan zərər çəkib. Bunun da 35-i mülki şəxs olmaqla 45 nəfəri həlak olub. 89-u mülki şəxs olmaqla 221 nəfər isə yaralanıb.

### Dəqiq mina xəritələri hələ də ölkəmizə təqdim olunmayıb

Təəssüfedici reallıqdır ki, mina qurbanına çevrilmiş vətəndaşlarımızla bağlı açıqlanan bu statistikanın son olacağını, eləcə də işğaldan azad edilən torpaqlara gedən vətəndaşlarımızın mina ilə bağlı həyati təhlükələrinin olmayacağını hələlik demək mümkün deyil. Ermənistanın torpaqlarımıza basdırdığı minaların dəqiq xəritələrini verməkdən boyun qaçırması isə dövlət siyasəti terrora köklənən bu ölkənin cinayət əməllərini hələ də davam etdirmək niyyətlərini açıq ortaya qoyur.

Xatırladaq ki, Azərbaycanın ardıcıl tələblərindən və beynəlxalq təzyiqlərdən sonra Ermənistan işğaldan azad edilmiş müəyyən ərazilərin minalanmış sahələrinin xəritəsini ölkəmizə təqdim etsə də, faktiki olaraq bu sənədlər işğaldan azad edilmiş əraziləri tam əhatə etmir və həmin xəritələrin dəqiqliyi cəmi yüzdə 25 faizdir.

44 günlük müharibə başa çatdıqdan sonra da ermənilər hərbi cinayətlərini davam etdirərək ərazilərimizi minalamaqda davam ediblər. Laçın rayonu ərazisində bu ilin 15 avqust tarixindən 31 avqust tarixinədək 1318 ədəd PMN-E növlü minalar aşkar edilib. Aşkar olunan minalar Vətən müharibəsindən sonra 2021-ci ildə Ermənistanda istehsal olunan minalardır.

2022-ci il sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlar törətmişdi. Həmin tarixdə Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefindən və mövcud dərə boşluqlarından istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirmişdilər.

Azərbaycan bütün xarici tribunalardan ən ali səviyyədə Ermənistanın hərbçilərimizi və mülki əhalimizi hədəf alan mina terrorunu qaldırır. Lakin hələ də beynəlxalq ictimaiyyət terrorçu ölkənin hərbi cinayətlərinə göz yumur, beynəlxalq hüquqa əsaslanaraq onlara əlavə təzyiqlər göstərmir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ermənistan regional layihələrdən niyə kənarda qalır

## Qonşu ölkə tarixi saxtalaşdırır, özgə ərazisinə işğalçı gözü ilə baxır, sözünə sahib çıxmır

Ermənistan son onilliklər regionda həyata keçirilən qlobal layihələrin heç birinin iştirakçısı deyil. Öz xislətinə görə bu layihələrin hamısından qıraqda qalıb. Neft, qaz ixracı marşrutları, dəmiryolu xətləri, nəqliyyat dəhlizləri onun ərazisindən yan keçir. Bir sözlə, Ermənistan bu sahədə də özünü çıxdaş bir ölkəyə çevirib.

Azərbaycan həmin dövrdə dünya əhəmiyyətli nəhəng layihələr həyata keçirib və bu istiqamətdə işləri uğurla davam etdirir. Hələ keçən əsrin sonunda Bakı-Novorossiysk, Bakı-Supsa kimi neft kəmərləri işə salınıb. Ardınca XXI əsrin əvvəlində üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri çəkilib. Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində 1768 kilometr məsafə boyu uzanan bu kəmər Xəzərin ölkəmizə məxsus sektorundan çıxarılan nefti dünya bazarlarına çatdırır.

BTC bütün regiona xeyir-bərəkət gətirən kəmərdir və belə bir xəttin Ermənistandan yan keçməsi bu ölkənin həm siyasi imicinə, həm də əhalisinin güzəranına böyük zərbədir. Ermənistan eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsindən kənarda qalıb. Təbii ki, bundan sonra çəkilən müxtəlif təyinatlı xətlər də Ermənistandan keçməyib. Azərbaycan qonşu Gürcüstan və Türkiyə ilə birlikdə Bakı-Tbilisi-Qars dəmir yolunu çəkib. "Şərq-Qərb" nəqliyyat dəhlizinin tərkib hissəsi olan bu yolla daşımalar ildən-ilə artır. Belə misallar çoxdur.

Ermənistan isə bütün bu nəhəng işlərə kənardan, düşdüyü iqtisadi dalandan seyrçi kimi baxır. Səbəb aydındır. Bir daha vurğulayaq ki, Azərbaycan mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. Ölkəmiz bir çox qlobal layihələrin təşəbbüsçüsüdür və onları həmin əməkdaşlıq və tərəfdaşlıq şəraitində uğurla həyata keçirir. Ermənistan isə özünün saysız-hesabsız səhvləri və günahları ucbatından bu platformadan uzaqda qalıb. Prezident İlham Əliyevin dediyi kimi: "Biz qonşularla dostluq, əməkdaşlıq, səmimiyyət əsasında münasibətləri qurmuşuq və məhz buna görə bu layihələrə nail olmuşuq. Ermənistan isə əsrlərboyu qonşulara xor gözlə baxır, qonşulardan nəsə qoparmaq istəyir, onların torpağına iddia edir, tarixi saxtalaşdırır və özününküləşdirməyə cəhd edir. Fərq bundan ibarətdir".

Dövlətimizin başçısı hələ Vətən müharibəsindən əvvəl o ölkənin layihələrdən kənarda qalması barədə bunları da demişdir: "Ermənistanı bu enerji və nəqliyyat layihələrindən biz təcrid etmişik və bunu heç vaxt gizlətməmişik. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz Ermənistanı regionda bizim iştirakımızla reallaşdırılan bütün önəmli layihələrdən təcrid edəcəyik və biz buna nail olduq, həmişə olduğu kimi, sözümüzə sadiq qaldıq. Ermənistan bu gün bizim səylərimiz nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanıdır. Torpaqlarımızdan çıxmayana qədər bu vəziyyət belə də olacaq. Beləliklə, Ermənistan rəhbərliyi növbəti dəfə saxta məlumat əsasında Ermənistanı Azərbaycanla müqayisə etmək istəsə, yaxşı fikirləşsin. Çünki idman dili ilə desək, Azərbaycan ali liqada, Ermənistan isə üçüncü liqadadır və getdikcə bu fərq daha da böyüyəcək".

Bu fərq özünü onda daha aydın göstərdi ki, ermənilər zəbt etdikləri torpaqlarımıza yiyələnə bilmədilər. Bu il noyabrın 8-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdəki çıxışında dediyi kimi: "Müharibəyə gedən yol bir çox istiqamətlərdən keçmişdir. İlk növbədə, biz özümüz ordumuzu lazımi silahlar və texnika ilə təchiz etməli idik. Bunun üçün də güclü iqtisadiyyat olmalı idi. Azərbaycan müstəqilliyi əldə edəndə bizim maliyyə, iqtisadi vəziyyətimiz çox ağır idi. Ona görə güclü iqtisadiyyatın yaradılması müharibədə qələbənin qazanılması işində önəmli amil kimi nəzərə alınırdı və biz bunu etdik. Bizim iqtisadiyyatımız gücləndi, biz öz hesabımıza yaşayırıq, heç kimin yardımına ehtiyacımız yoxdur, heç kimdən asılı deyilik, özümüz imkan daxilində öz həyatımızı qururuq və yaxşı da qururuq".

İndi dünyanın müxtəlif yerlərində gedən iqtisadi proseslər, çətinliklər, böhranlar Azərbaycan iqtisadiyyatının dayanıqlı olduğunu göstərir. Biz güclü iqtisadiyyat yaratmışıq və iqtisadi asılılığı tamamilə aradan qaldırmışıq. Əgər kimdənsə iqtisadi cəhətdən asılı olsaydıq, zəfər çala bilməzdik. Yəni qalib gəlmək üçün önəmli layihələr icra etmişik. Bu gün dünyanın və bölgəmizin enerji-nəqliyyat xəritələrinə baxmaq kifayətdir ki, hər kəs təşəbbüsümüzlə icra edilən layihələrin həm ölkəmizə, həm də tərəfdaşlarımıza nə qədər böyük fayda gətirdiyini görsün. Bu nəqliyyat və enerji layihələrində iştirak edən ölkələrin, dostlarımızın, müttəfiqlərimizin sayı onlarladır. İndiki mərhələdə bu işlər daha geniş vüsət alacaq.

Öz gücümüzlə, müzəffər sərkərdəmizin iradəsi və zəkası ilə, igidlərimizin qanı-canı bahasına artıq mənfur işğalçını torpağımızdan qovmuşuq. Şanlı qələbə qazanmışıq. İndi dövlətimiz, Prezidentimiz böyük humanizm göstərərək erməniləri regionda həyata keçirməyə başladığımız layihələrdə iştirak etməyə çağırır. Lakin ermənilərin xisləti bu mərhələdə də özünü aydın nümayiş etdirir. Çünki onlar sülh adamı deyil, qurub-yaratmağa maraqları yoxdur, işləri-peşələri dava-dalaşdır. Kapitulyasiya etdiklərinə, üzərlərinə öhdəlik götürdüklərinə baxmayaraq verdikləri sözdən qaçmaq istəyirlər.

Prezidentimiz Şuşada noyabrın 8-də bu barədə demişdir: "Zəngəzur dəhlizi Ermənistanın öhdəliyidir, öz üzərinə öhdəlik götürüb. Biz iki il ərzində Laçın yolu ilə Ermənistandan Qarabağa və əks istiqamətə gedən maşınlara toxunmuruq. Biz öhdəlik götürmüşük, yerinə yetiririk, sərbəst hərəkət. Ermənistan da öhdəlik götürüb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında yol bağlantısı olsun. İki il keçib üstündən, nə texniki-iqtisadi əsaslandırma var, nə hansısa hərəkət var, nə dəmir yolu, nə də avtomobil yolu. Biz nə vaxta qədər gözləməliyik? Bir sözlə, müharibədən keçən iki il ərzində biz öz siyasətimizi davam etdirmişik. Biz iki il ərzində böyük quruculuq işləri görmüşük, Qarabağı və Şərqi Zəngəzuru faktiki olaraq yenidən qururuq və quracağıq. Eyni zamanda ordumuzu gücləndiririk və gücləndirəcəyik".

Çünki Ermənistanda revanşist qüvvələr baş qaldırır. Ermənistan yaxşı qonşu olmağı bacarmır və bunu istəmir. Buna görə də Prezident İlham Əliyev deyir ki, Ermənistan yaxşı qonşuluq siyasəti aparmaq istəyirsə, birincisi, 2020-ci ilin 10 noyabr Bəyanatının bütün müddəalarını yerinə yetirməlidir: "Azərbaycanla sülh üzrə aparılan danışıqlarda səmimi olmalıdır. Süni şəkildə vaxt uzatmamalıdır, hansısa möcüzəni gözləməməlidir ki, kimsə gəlib bunların yerinə vuruşacaq. Heç kim gəlib onların yerinə vuruşmayacaq, gəlib vuruşsa da, qarşısında yenə də Azərbaycan Ordusunu görəcək".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# QHT və dini icmalar arasında əməkdaşlıq gücləndirilir

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Qəbələdə "Milli-mənəvi dəyərlərin təbliğində QHT və dini icmaların rolu" mövzusunda regional konfrans keçirilib.**









Tədbirdə Prezident Administrasiyasının məsul əməkdaşı Əli Pənahov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Amil Cavadov, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova, eyni zamanda  dini icma rəhbərləri, QHT sədrləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan A.Cavadov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutunun vətəndaş cəmiyyətləri institutları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərdiyini, maarifləndirici layihələrin həyata keçirildiyini vurğulayıb.

Prezident Administrasiyasının məsul əməkdaşı Əli Pənahov tədbirin keçirilməsinin önəminə toxunaraq QHT və dini icmaların birgə fəaliyyətinin zəruriliyinə toxunub.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bir sıra mənfi təzahürlərlə mübarizədə QHT və dini icmaların əməkdaşlığı məsələsinin vacib məqamlardan biri olduğunu qeyd edib.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova dövlətin ölkəmizdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına, eləcə də dini icmalara xüsusi diqqət sərgilədiyini, regionlarda keçirilən bu cür konfransların bunun bariz nümunələrindən birini təşkil etdiyini bildirib.

Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili isə çıxışında Qafqaz Albaniyası irsinin həm ölkə daxilində, həm də xaricdə uğurla təbliğ olunmasında və gələcək nəsillərə çatdırılması istiqamətində vətəndaş cəmiyyəti institutları ilə birgə müxtəlif layihələrin reallaşdırılmasının vacibliyini diqqətə çatdırıb.



QHT sədrləri dini maarifləndirmə işinin artırılmasının, cəmiyyətdə radikallığa şərait yaradan halların aradan qaldırılması istiqamətində hamının səfərbər olmasının, mövcud dini sabitliyi və dini dəyərləri qoruyub saxlamağın əhəmiyyətini vurğulayıblar.

Konfransda gənclərimizin radikalizmdən uzaqlaşdırılması, onlarda vətənpərvərlik hissinin aşılanması, milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində vətəndaş cəmiyyəti institutları ilə birgə müxtəlif layihələrin reallaşdırılmasının vacibliyinə toxunulub, faydalı təkliflər irəli sürülüb.

Konfrans çərçivəsində Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Yalağaclı məscidi, "Alban Udi Ocağı", "Cotari" Alban-Udi və Müqəddəs Məryəm Ana kilsələri ziyarət edilib. Tədbir iştirakçılarına dini ibadətgahlar haqqında geniş məlumat verilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Səttar Möhbalıyev növbəti dəfə BHİK-nin vitse-prezidenti seçilib

**Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) Avstraliyanın Melburn şəhərində keçirilən V Dünya Qurultayında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri Səttar Möhbalıyev səsvermə yolu ilə yenidən BHİK-nin vitse-prezidenti seçilib.**




Avropa Həmkarlar İttifaqları Konfederasiyasının və Pan Avropa Regional Şurasının başçısı Luka Visentini BHİK-nin baş katibi, Yaponiya Həmkarlar İttifaqları Konfederasiyasının rəhbəri xanım Tomoko Yoşino isə prezidenti seçilib.

AHİK sədri Səttar Möhbalıyev yeni seçilən baş katib və prezidentlə görüşüb, onları təbrik edib və fəaliyyətlərində uğurlar arzulayıb. Bildirib ki, Azərbaycan Həmkarlar İttifaqları BHİK ilə hərtərəfli münasibətə böyük əhəmiyyət verir, təşkilatın üzvləri ilə səmərəli əməkdaşlıq edir.

L.Visentini ilə əvvəlki görüşləri və aparılan fikir mübadilələrini xatırladan S.Möhbalıyev bildirib ki, BHİK-nin bundan sonra da qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcəyinə, milli həmkarlar ittifaqları arasında əlaqələrin daha da genişlənəcəyinə inanır.

AHİK sədri Səttar Möhbalıyevin BHİK-nin yeni prezidenti Tomoko Yoşino ilə görüşündə isə Yaponiya və Azərbaycanın həmkarlar ittifaqları arasında olan münasibətlərdən, təşkil olunan qarşılıqlı səfərlərdən, aparılan fikir mübadilələrinin səmərəli nəticələrindən danışılıb. Ölkəmizin həmkarlar ittifaqı fəallarının Yaponiyaya səfərini xatırladan S.Möhbalıyev bunun əlaqələrin inkişafında əhəmiyyətli rol oynadığını diqqətə çatdırıb. Qeyd olunub ki, tərəflər bundan sonra da münasibətlərin dərinləşdirilməsi istiqamətində səylə çalışacaqlar.

Qeyd edək ki, Avstraliyanın Baş naziri Entoni Albaneze və Yeni Zelandiya hökumətinin başçısı Casinda Ardern də qurultayda çıxış edib, milli həmkarlar ittifaqlarına uğurlar arzulayıblar.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# On ayda pensiyaların ödənişinə 4 milyard 114 milyon manat vəsait yönəldilib

**Sosial təminat sisteminin mühüm komponenti olan pensiya təminatının gücləndirilməsi tədbirləri 2022-ci ildə də davam edib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu ilin yanvar-oktyabr aylarında pensiyaların ödənişinə əvvəlki ilin müvafiq dövrünə nisbətən  7 faiz və ya 270 milyon manat çox olmaqla 4 milyard 114 milyon manat vəsait yönəldilib.

Qeyd edək ki, 2022-ci ilin əvvəlindən yeni sosial islahat paketinin tərkib hissəsi kimi, minimum pensiya 20 faiz artırılaraq 240 manata çatdırılıb. Pensiyaların növbəti dəfə indeksasiya nəticəsində artırılması təmin edilib, pensiya alanlara 2022-ci ilin əvvəlindən bu il üzrə 200 manat maddi yardım (hər rüb 50 manat olmaqla), qulluq stajına görə əlavələr alan pensiyaçılara da 2022-ci ilin əvvəlindən pensiyalarının 10 faizi qədər aylıq maddi yardım ödənilir. 1,2 milyon nəfər pensiyaçını əhatə edən bu artımlar üçün əlavə olaraq illik 440 milyon manat vəsait ayrılıb.

Pensiyaların proaktiv qaydada təyinatı prosesi davam edib: 10 ayda 21 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb. Pensiyaların proaktiv təyinatı mexanizminin tətbiq olunduğu 2019-cu ilin əvvəlindən isə 69 min şəxsə pensiya e-qaydada proaktiv şəkildə təyin olunub.



# "Akıncı"dan "Qızıl alma"ya



## Qardaş Türkiyənin süni intellekt sistemi ilə təchiz olunan yeni zərbə pilotsuz qırıcı təyyarəsi dünyaya səs saldı

**Qardaş Türkiyə Respublikasının hərbi sənayesi möhtəşəm layihələri ilə dünyanı heyrətləndirməkdə davam edir. Samsunda keçirilən "TEKNOFEST Qaradəniz" aerokosmik festivalında "Baykar Texnoloji" şirkətinin yeni istehsalı olan "Bayraktar Qızıl alma" zərbə pilotsuz qırıcısının nümayiş etdirilməsi isə dünyanın diqqətini növbəti dəfə Türkiyəyə yönəltdi.**

Danılmaz gerçəklikdir ki, son illərdə bu istiqamətdə modern, ən iri və ən yüksək strateji təyinatlı funksiyalara malik Silahlı İnsansız Hava Aparatlarının (SİHA) istehsalı ölkənin hərbi sənayesinin qüdrətinin göstəricisi olmaqla yanaşı, onun nüfuzunun daha da yüksəlməsini şərtləndirən mühüm aktordur.

### "Smart müharibə"nin zəfərində əvəzsiz xidməti olan PUA-lar

Yeni zərbə pilotsuz təyyarənin nümayiş etdirilməsi bir daha dünyaya göstərdi ki, Türkiyə hərbi sənayesinin potensialı Suriyada, Liviyada, 44 günlük İkinci Qarabağ və Rusiya-Ukrayna müharibələrində özünü mükəmməl effektli silah kimi göstərən "Bayraktar TB2" Silahlı İnsansız Hava Aparatları (SİHA) ilə yekunlaşmır.  Bu gün Türkiyə hərbi sənayesinin ən qabaqcıl yeniliklərindən biri SİHA-ların daha mükəmməl variantlarının hazırlanmasıdır.

Əlbəttə ki, Türkiyənin yeni-yeni pilotsuz uçuş aparatları, hərbi sənayedə uğurları Azərbaycanı da sevindirir.  Çünki iki qardaş ölkə arasındakı sarsılmaz birlik, strateji tərəfdaşlıq hazırda ən ali məqamdadır. 44 günlük Vətən müharibəsində məhz "Bayraktar TB2" pilotsuz uçuş aparatları vasitəsilə düşmənin komanda müşahidə məntəqələri, silah-sursat anbarları, hərəkətdə olan hərbi texnika və canlı qüvvəsi, ölkəmizin ərazisinə atılması hədəflənən "S-300" və digər raket kompleksləri məhv edilmişdir. Əldə etdiyimiz şanlı zəfərdə "Bayraktar" PUA-larının əvəzsiz xidmətləri olmuşdur.

Zəfərdən sonra isə iki qardaş ölkənin iştirakı ilə bu il mayın 26-29-da Bakıda ilk dəfə keçirilən "TEKNOFEST-Azərbaycan" festivalında Türkiyə daha bir yeni PUA-nı - "Akıncı"nı dünyaya nümayiş etdirdi.

Xüsusi olaraq vurğulanmalıdır ki, Türkiyənin Təkirdağ əyalətinin Çorlu rayonundan səmaya qalxan "Bayraktar Akıncı" Gürcüstan üzərindən keçməklə təxminən 2 min km məsafəni uğurla qət edib Azərbaycana gəldi.

"Akıncı"nın inkişaf etdirilməsinə 2017-ci ilin may ayında başlanılmışdı. Onun ilk uçuşu 2019-cu il dekabrın 6-da həyata keçib. İlk uçuş zamanı PUA 16 dəqiqə havada qalıb. Prototipin ikinci uçuşu isə 2020-ci il yanvarın 10-da baş tutub, həmin uçuş zamanı PUA bir saatdan artıq havada olub. "Akıncı"nın ikinci prototipinin ilk uçuşu 2020-ci il avqustun 13-də həyata keçirilib.

"Baykar Holdinq" tərəfindən istehsal edilən "Akıncı" pilotsuz təyyarəsi artıq havada azı 24 saat fasiləsiz qala bilir. 12 min metrdən çox yüksəklikdə uçur və bazadan 150 kilometr uzaqda, tam müstəqil rejimdə əməliyyatlar həyata keçirə bilir.

Göyərtəsində 3 ədəd süni intellekt kompüteri olan "Akıncı" dronları eyni zamanda yerüstü kəşfiyyat aparır, sensorlar və yüksək həssaslığa malik kameralar vasitəsilə məlumatları toplayıb müstəqil rejimdə təhlil edir, habelə komanda mərkəzinə ötürür. Digər mühüm özəlliyi isə budur ki, həmin pilotsuz sistemlər bütöv eskadrilya halında döyüşdə tətbiq edilə bilir, bu zaman dronlar süni intellekt vasitəsilə bir-biri ilə koordinasiya içərisində olur. "Akıncı" qiyməti 4-5 milyon dollar olan bir və ya bir neçə tankı asanlıqla məhv etmək iqtidarındadır.

Elə Bakıdakı "TEKNOFEST-Azərbaycan" festivalında insanların, dövlətlərin daha çox maraq göstərdiyi texnologiyalardan biri də məhz "Akıncı" PUA-ları oldu.

### "Qızıl alma"- "aqressiv manevr", daha güclü mühərrik

Türkiyə mətbuatının yaydığı məlumata əsasən, əslində, pilotsuz reaktiv qırıcı olan bu modeli yaratmaq üçün konstruktorlara 12 il vaxt lazım olub. "Baykar" şirkətinin rəhbəri Selçuk Bayraktar bildirib ki, PUA-nın prototipinin istehsalına bu ilin mart ayından başlanılıb. Samsunda keçirilən "TEKNOFEST Qaradəniz" aerokosmik festivalında "Qızıl alma" ictimaiyyətə təqdim edilib.

Pilotsuz təyyarə turboreaktiv mühərrik, inkişaf etmiş süni intellekt sistemi ilə təchiz olunub, "Baykar" mütəxəssislərinin dediyinə görə, yeni PUA "aqressiv manevr" qabiliyyətinə malikdir və çətin nəzərə çarpır. Uçuş üçün minimum uzunluqda zolaq lazımdır ki, bu da ona, məsələn, gəminin göyərtəsindən istifadə etməyə imkan verəcək.

"Qızıl alma" iki əsas modifikasiyada istehsal olunacaq. Ukrayna istehsalı olan AI-25TLT mühərrikli MIUS-A səsdən yuxarı sürətə yaxın olacaq. MIUS-B isə Ukraynanın AI-322F mühərriki və ya Türkiyənin TEI TF-6000 mühərriki ilə təmin ounacaq və səsdən sürətli olacaq. Bu model 2,5 dəfə daha güclü mühərrik sayəsində yüksək parametrləri ilə seçiləcək. MIUS-A aşağıdakı xüsusiyyətə malikdir: "Bayraktar Qızıl alma"nın maksimum uçuş çəkisi təxminən 6000 kq-dır, bunun 1500 kq-dan çoxu faydalı yükün payına düşür, sursat-yükqaldırma qabiliyyəti 1000 kq-dır, sürəti 700 km/saatdır, əməliyyat hündürlüyü 10 000 m, maksimal uçuş müddəti 5 saat, hərəkət radiusu isə 926 kilometrdir.

"Baykar" və Ukrayna arasında bağlanmış müqaviləyə əsasən, Ukraynadakı "Bayraktar" zərbə pilotsuz təyyarələri istehsal edən zavod təkcə özünü təsdiq etmiş TB2 modelini deyil, həm də yeni pilotsuz qırıcıları - "Bayraktar Akıncı" və "Bayraktar Qızıl alma"nı istehsal edəcək. Türkiyə şirkəti özü də 2023-cü ildə reaktiv "alma"ların kütləvi istehsalına başlamaq niyyətindədir.

Mütəxəssislər qeyd edirlər ki,  bəzi sahələrdə "Bayraktar Qızıl alma" gələcəkdə xeyli bahalı olan "F-16" və ya "F-35" təyyarələrinin bir çox xüsusiyyətini mənimsəyə bilər. Artıq hətta "Akıncı"nın faydalı yükgötürmə qabiliyyətinin "F-16" səviyyəsində olması bunu deməyə əsas yaradır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# Nümunəvi fəaliyyət

## "Azərlotereya"nın Türkiyədə təhsil alan şəhid övladlarına Zəfər Günü sürprizi hər kəsi duyğulandırdı

**44 günlük Vətən müharibəsində vəzifəsindən, rütbəsindən asılı olmayaraq döyüşən bütün hərbçilərimiz - zabitlərimiz, çavuşlarımız, əsgərlərimiz öz hünərləri ilə yeni vətənpərvərlik nümunələri yaratdılar, dastanlar yazdılar.**





Xalqımızın qəhrəmanlıq tarixini öz rəşadətləri ilə zənginləşdirən qəhrəman oğullarımız bu savaşda canlarını fəda etdilər, torpaqlarımızın azadlığı uğrunda müqəddəs şəhidlik zirvəsinə yüksəldilər. Şəhidlərin ruhu şaddır, çünki uğrunda mübarizə apardıqları Vətən torpaqları azaddır. Bu torpaqlar indi bizim üçün daha müqəddəsdir, çünki onun hər qarışına şəhidlərimizin qanı hopub.

Bu gün şəhid ailələrinə qayğı ilə yanaşmaq, onlara lazımi maddi və mənəvi dəstək göstərmək dövlətimizin sosial siyasətinin mühüm tərkib hissəsidir. Dövlətimizlə bərabər, ölkəmizin aparıcı təşkilatları da humanist layihələrə dəstək verir, bu kateqoriyaya aid olan vətəndaşlara qayğı göstərirlər. "Azərlotereya" ASC bu istiqamətdə də nümunəvi fəaliyyəti ilə fərqlənir.

Haqq savaşında şücaətlə döyüşərək ölkəmizə qələbə hissini qazandıran şəhidlərimizin ailələrinə dəstək olmağı özünə borc hesab edən "Azərlotereya" ASC bu istiqamətdə sosial layihəyə start verib. Belə ki, "Əmanətə sədaqət" devizinə əsaslanan "Azərlotereya" vətən uğrunda canlarından keçmiş Qarabağ müharibəsi şəhidlərinin övladlarının parlaq gələcəyi naminə onları təqaüdlə təmin edir. "Azərlotereya" ASC-nin təhsil təqaüdü proqramı Türkiyənin dövlət ali təhsil müəssisələrinin tələbəsi olan şəhid övladlarının təhsil haqqı və yaşayış xərcləri, həmçinin Azərbaycanda ali təhsil alan şəhid övladlarının yaşayış xərclərinin qarşılanmasını nəzərdə tutur.

Məqsəd şəhid ailələrinin sosial müdafiəsi, onların rifah halının yaxşılaşdırılması istiqamətində dövlətin prioritet siyasətinə dəstək göstərmək, həmin ailələrin qayğı ilə əhatələnməsinə xidmət etməkdir. Ölkəmizin inkişafı naminə təhsilin önəmini nəzərə alaraq "Azərlotereya" ASC-nin təqaüd proqramı da şəhid övladlarının gələcəkdə uğurlu karyera qurmasında əhəmiyyətli rola malik olacaq.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin birgə əməkdaşlığı ilə həyata keçirilən bu sosial layihə hazırda 66 nəfəri əhatə edir ki, onlardan 59-u Azərbaycanda, 7-si isə Türkiyədə təhsil alır.

Təhsilin tərəqqisinə yönələn layihələrə dəstək göstərməkdə maraqlı olan "Azərlotereya" ASC bu sferada Elm və Təhsil Nazirliyi və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi ilə əməkdaşlığı uğurla davam etdirməkdədir.

"Azərlotereya" ASC-nin təqaüd proqramı cari və növbəti illərdə də Azərbaycanda və Türkiyədə ali təhsil almaq istəyən şəhid övladlarına şamil olunacaq.

Bütün bunlarla yanaşı, şirkət təqaüd ayırdığı Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri ilə görüşlər də keçirməkdədir. Ən maraqlı, duyğu dolu sürpriz isə noyabrın əvvəlində Zəfər Günü ərəfəsində "Əmanətə sədaqət" layihəsi çərçivəsində təhsil təqaüdü ayırdığı şəhid ailə üzvləri ilə Türkiyənin İstanbul şəhərində təşkil edilən görüş oldu. Tədbir iştirakçılarını salamlayan "Azərlotereya" ASC-nin İdarə Heyətinin sədri Zafer Reisoğlu çıxışına Türkiyədə təhsil alan tələbələr üçün hazırlanan sürprizi təqdim etməklə başlayıb. O, tələbələrin Azərbaycandan gələn ailə üzvlərini tədbirin keçirildiyi zala dəvət edib: "Əziz analar və bacılar, şəhidlərimizin bizə əmanəti olan dəyərli tələbələrimizi Zəfər Günündə sizlərlə burada görüşdürməyi, bu böyük günü sizli-bizli birlikdə qeyd etməyi düşündük. Çox sağ olun ki, bizim bu təklifimizi qəbul etdiniz, övladlarınıza sürpriz edərək buraya - onların görüşünə gəldiniz".

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə görüşün təşkili, eləcə də şəhid ailələrinə ayrılan diqqətə görə "Azərlotereya" ASC-yə təşəkkür edib.

Daha sonra şəhid baş leytenant Hikmət Səfərovun həyat yoldaşı Gülnarə Səfərova çıxış edərək deyib: "Zəfər Günü ərəfəsində bu gözəl və özəl təşəbbüsü irəli sürən, reallaşmasında əziyyəti keçən hər kəsə - başda "Demirören Holdinq", "Azərlotereya" ASC və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinə sonsuz minnətdarlığımı bildirirəm".

"Atam qardaşlarımı və məni təhsilli görmək istəyirdi", - deyən şəhid XTQ mayoru Tofiq Kərimovun oğlu Anar Kərimov isə təhsilinə göstərilən dəstəyin onun üçün önəmli olduğunu vurğulayıb: "Universitet həyatı nə qədər gözəl olsa da, bir o qədər də çətinlikləri var. "Azərlotereya" ASC-yə təşəkkür edirəm ki, belə çətin vaxtlarda bizim yanımızda olub dəstək göstərir".

Göründüyü kimi, ölkəmizdə şəhid ailələri hərtərəfli sosial dəstəklə əhatə olunublar. Bu fonda "Azərlotereya" ASC tərəfindən sözügedən kateqoriyadan olan vətəndaşlara göstərilən qayğı da nümunəvidir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Kasım-Jomart Tokayev qalib gəldi

## Qazaxıstan Prezidenti siyasi islahatların davamlılığını bəyan edib

Qazaxıstanda keçirilən növbədənkənar prezident seçkiləri başa çatıb. Ölkənin Mərkəzi Seçki Komissiyasının sədri Nurlan Abdirov keçirdiyi son brifinqdə bildirib ki, seçkilərdə 81,31 faizlə, 6 milyon 456 min 392 səs toplayan Kasım-Jomart Tokayev qələbə qazanıb.



Tokayevi qələbə münasibətilə ilk təbrik edən Qazaxıstanın keçmiş rəhbəri Nursultan Nazarbayev olub. Nazarbayev Tokayevin qələbəsini tarixi adlandıraraq, xalqın ona inandığını bildirib. N.Nazarbayev prezidentin rəhbərliyi ilə aparılan islahatları təqdir edərək onun Qazaxıstan üçün ən kritik anlarda doğru qərar verdiyini vurğulayıb.

İlkin məlumatlara görə, seçici fəallığı 69,44 faiz təşkil edib. Səsvermədə qeydə alınmış 12 milyona yaxın seçicidən 8,2 milyondan çoxu iştirak edib.

Seçicilərin 5,80 faizi "hamının əleyhinə" səs verib. Bu nəticə ikinci yer alıb. Üçüncü yerdə isə 3,42 faiz səslə Qazaxıstan Fermerlər Assosiasiyasının rəhbəri Jiquli Dayrabayev qərarlaşıb.

Ümumilikdə dövlət başçısı postu uğrunda 6 namizəd mübarizə aparıb. Kasım-Jomart Tokayevdən başqa, bunlar Jiquli Dayrabayev (3,42 faiz), Astana məclisinin (yerli qanunverici orqanın) deputatı Karakat Abden (2,60 faiz), namizədliyi həmkarlar ittifaqı tərəfindən irəli sürülən iqtisadi nəzəriyyəçi Meyram Kajıken (2,53 faiz), Milli Sosial Demokrat Partiyasının (MSDP) nümayəndəsi Nurlan Auesbaev (2,22 faiz) və hüquq müdafiəçisi Saltanat Tursınbekovadır (2,12 faiz).

Növbədənkənar seçkiləri 641 beynəlxalq müşahidəçi izləyib. Onlar 10 beynəlxalq təşkilatı və 35 xarici ölkəni təmsil ediblər.

Seçicilərin mütləq əksəriyyətinin etimadını qazanan Jomart Tokayev seçki qərargahında çıxış edərək seçkilərin qanunauyğun keçirildiyini, bütün namizədlərin bərabər imkanlara malik olduğunu bildirib: "Onlar sərbəst şəkildə rayonlara səfər edib, seçicilərlə görüşüb, təşviqat aparıblar. Heç kimə məhdudiyyət qoyulmayıb. Hər bir seçiciyə seçim azadlığı verilib. Beləliklə, bu kampaniya ədalətli və açıq olub".

Xatırladaq ki, Kasım-Jomart Tokayev 2019-cu ildə Qazaxıstanın Prezidenti olub. Həmin il iyunun 9-da respublikada prezident seçkiləri keçirilib. O seçkilər də növbədənkənar idi, çünki ölkəyə 28 il başçılıq etmiş ilk prezident Nursultan Nazarbayev 2019-cu il martın 19-da səlahiyyətlərinə xitam verilməsi haqqında fərman imzalamışdı. Həmin seçkilərdə Qasım-Jomart Tokayev səslərin 70,76 faizini qazanaraq qalib gəlmişdi.

Kasım-Jomart Tokayev yeni Konstitusiyaya görə yalnız bir dəfə 7 il prezident olacaq. "Ədalətli Qazaxıstan - hamı və hər kəs üçün" şüarıyla çıxış edən Tokayev dövlət institutlarının yenidən qurulmasına ehtiyac olduğunu bildirir. Tokayev böyük ehtimalla prezidentliyinin yeni mərhələsində ölkədə iqtisadi islahatları dərinləşdirməyə çalışacaq.

Qazaxıstan dövlətinin başçısı jurnalistlərə yaxın planlarını da açıqlayıb: "Mən demişdim ki, siyasi islahatlar davam etdirilməlidir. Əks halda durğunluq yaranacaq. Digər tərəfdən, qanuna görə, prezident seçkilərindən sonra hökumət istefaya getməli deyil. Bu, parlament seçkilərindən sonra mütləq həyata keçirilir. Parlament seçkilərinin vaxtına gəlincə, ilin sonunda mən xüsusi bəyanatla çıxış edəcəyəm".

Kasım-Jomart Tokayev Qazaxıstanın geosiyasi mövqeyini nəzərə alaraq çoxvektorlu siyasətə üstünlük verir. "Ölkəmizin geosiyasi mövqeyini, iqtisadiyyatımıza 500 milyard dollardan çox vəsaitin cəlb olunduğunu və qlobal şirkətlərin bizim bazarda fəaliyyət göstərdiyini nəzərə alaraq, biz, sadəcə olaraq, çoxvektorlu xarici siyasət aparmağa borcluyuq", - deyən prezident milli maraqların qorunmasına, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsinə, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsinə yönəlmiş siyasət kursunun davam etdiriləcəyini bildirib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# "Fransa qoşunları Afrikadan çıxarılsın!"

## Burkina Fasoda etirazçılar bu ölkənin səfirliyinə hücum ediblər

Əsrlərboyu Fransanın Afrikada törətdiyi çoxsaylı cinayətlər qitə ölkələrində Parisə qarşı nifrəti son həddə çatdırıb. Malidə, Əlcəzairdə, Nigerdə, müstəmləkəçilərdən dəhşətli iztirablar çəkmiş və hazırda da zərər çəkən digər dövlətlərdə fransızların antiinsani hərəkətlərinə qarşı etiraz aksiyaları indi də Burkina Fasoda baş verir.



"Fransa getməlidir" hərəkatının əlaqələndiricisi Lassane Savadoqonun tərəfdarları Burkina Fasonun paytaxtı Uaqaduquda Fransa qoşunlarının ölkə ərazisindən çıxarılması tələbi ilə nümayiş keçiriblər. "Radio France international" radiostansiyasının yaydığı məlumatda bildirilir ki, etirazçılar Fransa səfirliyi qarşısında toplaşaraq, fransız qüvvələrinin ölkədən çıxarılmasını və səfirin getməsi tələblərini irəli sürüblər. Nümayiş iştirakçıları həmçinin Burkina Faso ilə Fransa arasında müdafiə və təhlükəsizlik sahəsində müqavilənin ləğvini tələb ediblər. Müvafiq petisiya Fransa səfirliyinə təqdim olunub.

Bir neçə fəal səfirlik binasından Fransa bayrağını qoparmağa cəhd göstərsə də, onu qoruyan təhlükəsizlik qüvvələri səfirliyin ərazisinə daxil olmağın qarşısını almaq üçün gözyaşardıcı qazdan istifadə ediblər.

Sonra nümayişçilər Fransanın xüsusi təyinatlı qüvvələrinin yerləşdirildiyi Kambuandakı hava qüvvələri bazasına doğru irəliləyiblər. Onlar bazanı qoruyan təhlükəsizlik qüvvələrinə daş atıblar. Orada da etirazçılara qarşı gözyaşardıcı qazdan istifadə edilib.

Xatırladaq ki, Burkina Fasoda fransız qüvvələrinin mövcudluğuna qarşı bu il ardıcıl olaraq dörd etiraz aksiyası keçirilib. Burkina Fasonun da daxil olduğu Sahel bölgəsi ölkələrində hazırda "terrorçu qruplara qarşı əməliyyatlarda iştirak etmək" adı ilə 5 mindən çox fransız əsgəri yerləşdirilib.

### Paris Burkina Fasodan qoşunların çıxarılmasını istisna etmir

Fransa Sahel bölgəsində anticihadçı "Barhan" əməliyyatını başa çatdırıb. Bu barədə məlumat verən müdafiə naziri Sebastyen Lekornü Fransanın "Le Figaro" qəzetinə müsahibəsində bildirib: "Afrikadakı ümumi strategiyaya yenidən baxılması xüsusi təyinatlılar da daxil olmaqla, mövcudluğumuzun bütün komponentlərini şübhə altına alır".

Məlumata görə, Paris Afrikada yeni strategiyanı tamamlamaq üçün özünə altı ay vaxt verib.

Qeyd edək ki, artıq Malini tərk edən Paris Saheldə, xüsusilə Nigerdə hələ də hərbi mövcudluğunu saxlamaq istəyir.

*R.HİLALOĞLU,*
*"Azərbaycan"*

# "Şəhərlərin və kənd yerlərinin inkişafına innovativ yanaşma: "ağıllı şəhər və kəndlər" mövzusunda beynəlxalq konfrans olub

Bakıda Dünya Bankının dəstəyi ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Şəhərlərin və kənd yerlərinin inkişafına innovativ yanaşma: "ağıllı şəhər və kəndlər" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, kənd təsərrüfatı naziri İnam Kərimov, Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sara Maykl, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, müxtəlif dövlət orqanlarının, səfirliklərin və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Konfransda çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, dünyadakı demoqrafik artım fonunda ərzaq təhlükəsizliyi, xüsusən də Azərbaycan üçün aktual su resurslarının tükənməsi, enerji mənbələrinin səmərəli istifadəsi, ümumiyyətlə, şəhər və kəndlərdə göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin və səmərəliliyinin artırılması kimi problemlər "ağıllı şəhər" və "ağıllı kənd" anlayışlarını aktual edir. "Ağıllı kənd" konsepsiyası hazırlanan zaman səmərəlilik, zərurilik, dayanıqlılıq və innovasiyaların təşviqi amilləri nəzərə alınır.

Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sara Maykl təmsil etdiyi qurumla Azərbaycan hökuməti arasında əməkdaşlıq, "ağıllı kənd" və "ağıllı şəhər"in yaradılması istiqamətində icra olunan layihələr barədə danışıb.

Kənd təsərrüfatı naziri İnam Kərimov qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən noyabrın 16-da təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nda mütərəqqi beynəlxalq təcrübə, strateji inkişaf strategiyaları, azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. "Ağıllı kənd" ideyası məhz bu yanaşmalar fonunda meydana çıxıb və konsepsiya artıq təcrübədə həyata keçirilməkdədir. "Ağıllı kənd" insanları texnoloji yeniliklərə sürətli adaptasiya edən, ətraf mühitin daha yaxşı qorunmasına imkan verən, ekoloji tarazlığı təmin edən modeldir.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev diqqətə çatdırıb ki, "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyası təkcə müasir şəhərsalma tendensiyalarını və texnologiyaların tətbiqindən ibarət deyil: "Bu konsepsiyada insanların həyat şəraitini yaxşılaşdırmaq məqsədilə infrastrukturun yaradılması, dövlət xidmətlərinə əlçatanlığın təmin edilməsi, kəndlərdə yaşayan insanların məşğulluq məsələləri, iş imkanları, asudə vaxtlarının səmərəli keçirilməsi nəzərdə tutulur. Bütün bu istiqamətlər üzrə sürətli və keyfiyyətli işlər görülür".

Konfrans öz işini panel sessiyalarda davam etdirib. Sessiyalarda "Xidmətlərin rəqəmsallaşdırılması və dayanıqlı həyat tərzi", "Yaşıl enerjiyə keçid", "Azərbaycanda "ağıllı kənd" konsepsiyasının tətbiqi", "Kənd yerlərində tətbiq olunacaq ağıllı həllərin tətbiqi və dayanıqlılığın təmin edilməsində özəl sektorun rolu" mövzularında müzakirələr və təqdimatlar keçirilib.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi NATO-nun Müttəfiq Qüvvələrin Avropadakı Baş Qərargah rəisinin müavini ilə görüşüb

Noyabrın 21-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev "NATO günləri" çərçivəsində ölkəmizdə səfərdə olan NATO-nun Müttəfiq Qüvvələrin Avropadakı Baş Qərargah rəisinin müavini kontr-admiral Qunnşteyn Brusdal ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonağı salamlayan general-polkovnik K.Vəliyev Azərbaycan ilə NATO arasında əlaqələrin inkişaf etdiyini, habelə Azərbaycan Ordusunun nümayəndələrinin NATO-nun müxtəlif proqramları çərçivəsində fəal iştirakını qeyd edib.

Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi altında Vətən müharibəsində qazanılan Qələbənin əhəmiyyətini xüsusi vurğulayan Azərbaycan Ordusunun Baş Qərargah rəisi azad edilmiş ərazilərdə postmüharibə dövründə görülən işlər barədə danışıb.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığının inkişaf perspektivləri, həmçinin mövcud və yarana biləcək təhdidlərə qarşı birgə fəaliyyət istiqamətləri müzakirə edilib.

General-polkovnik K.Vəliyev NATO-nun Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində Şimali Atlantika Alyansının bölmələrimizin hazırlığına verdiyi töhfəni yüksək dəyərləndirib.

Səmimi qəbula görə minnətdarlığını ifadə edən kontr-admiral Q.Brusdal Azərbaycanın Şimali Atlantika Alyansının etibarlı tərəfdaşı olduğunu xüsusi vurğulayıb, ölkəmizin terrorizmə qarşı mübarizədə fəal iştirakını, Azərbaycan Ordusunun hərbi qulluqçularının NATO qərargahlarındakı fəaliyyətlərini, habelə beynəlxalq sülhməramlı missiyalarda nümayiş etdirdikləri peşəkarlığı yüksək qiymətləndirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov Şabranda həmin rayonun və Siyəzəndən olan vətəndaşların müraciətini dinləyib. Agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ümumilikdə 20-yə yaxın vətəndaş müraciət edib və onların bir qismi şəhid ailəsi üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər olub.

Müraciətlər sırasında fərdi ev, avtomobil təminatı, sanatoriya-kurort yollayışları ilə təminat və sosial reabilitasiya xidmətləri üstünlük təşkil edib.

İmtiyazlı şəxslər agentliyin fəaliyyət istiqamətlərinə aid müraciətlərini bildiriblər. Agentliyin sədri müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə tapşırıqlar verib.




# "DÇ-2022"

## A qrupu

**Qətər - Ekvador - 0:2**
***Qol:*** Valensiya, 16-pen, 32
***Baş hakim:*** Daniele Orsato (İtaliya)

Matçın ən yaxşı oyunçusu Ekvador millisinin kapitanı Enner Valensiya olub. Türkiyənin "Fənərbağça" klubunun futbolçusu sözügedən görüşdə dubla imza atıb. O, 16-cı (penalti) və 32-ci dəqiqələrdə fərqlənib.

Qeyd edək ki, E.Valensiya görüşün 4-cü dəqiqəsində də qol vurmuşdu. Ancaq VAR-a baxıldıqdan sonra qol ləğv olunmuşdu.

**Seneqal - Niderland - 0:2**
***Qollar:*** Qakpo, 85, Klaassen, 90+9
***Baş hakim:*** Uilton Sampayo (Braziliya)

## B qrupu

**İngiltərə - İran - 6:2**
***Qollar:*** Cud Bellingem, 35, Bukayo Saka, 43, 62, Rahim Sterlinq, 45+1, Markus Reşford, 71, Cek Qriliş, 90 - Mehdi Taremi, 65, 90+13 (pen.)
***Baş hakim:*** Rafael Klaus (Braziliya)




## "DÇ-2022"nin təqvimi

**22 noyabr**

C qrupu: 14:00 Argentina- Səudiyyə Ərəbistanı
D qrupu: 17:00 Danimarka- Tunis
C qrupu: 20:00 Meksika- Tunis
D qrupu: 23:00 Fransa- Avstraliya



# İspaniyaya xəstəlik şoku

**Qətərdə keçirilən Dünya çempionatına qatılan İspaniya millisinin 7 futbolçusu ilk oyun ərəfəsində soyuqlayıb.**

Buna otaqlardakı kondisionerlərin işləməsi səbəb olub. Alvaro Morata məşqi başa vura bilməyib. Lakin onun da Kosta-Rika ilə noyabrın 23-də keçiriləcək oyuna qədər hazır olacağı gözlənilir.

Qeyd edək ki, İspaniya millisi Yaponiya, Almaniya və Kosta-Rika ilə birlikdə E qrupunda mübarizə aparacaq.



# Sançes ümidlidir

**Qətər millisinin baş məşqçisi Feliks Sançes "DÇ-2022"də Ekvador yığması ilə açılış oyunundan (0:2) sonra fikirlərini bildirib.**

O deyib: "Ümid edirəm ki, növbəti matçda azarkeşlərimizi sevindirəcəyik. Komandamın daha çoxuna qadir olduğunu bilirəm. Atmosfer heyrətamiz idi, əsl bayram başladı. Təəssüf ki, buna uyğun gələ bilmədik. Bu matçdan dərs çıxarmağa çalışacağıq. Matça pis başladıq, oyun rəqibin tam nəzarətində idi. Ardıcıl dörd dəqiq ötürmə belə verə bilmədik".

Mütəxəssis stadiondakı mühitin əvvəlcə komandaya təzyiq göstərdiyini söyləyib: "Bu da oyuna təsir etdi. VAR olmasaydı, oyunun başlamasından üç dəqiqə sonra hesabda geri düşəcəkdik. Rəqib bizi bütün aspektlərdə üstələdi".

# Ac-susuz qaldılar

**Qətərdə start götürən "DÇ-2022"də çalışan işçilərin bir çoxu iş şəraitindən şikayətləniblər. Bu barədə "Daily Mail" məlumat yayıb.**

Hindistandan olan 212 kassir (205 kişi və 7 qadın) turnirin açılış mərasiminə qədər 6 saat yeməksiz və susuz qalıb. İşçilərin sözlərinə görə, onlar səhər saat 9-da yerləşdikləri hoteldən çıxıblar, səhər saat 10:00-da "Əl-Bayt" stadionuna çatıblar. Lakin işçilər axşam saat 16:00-a qədər arenaya buraxılmayıblar. Kassirlərə müdirin gəlişini gözləməyi söyləsələr də, yemək verilməyib. Oxşar hadisə stadiondan kənarda 3 saat yeməksiz və susuz qalan 20 filippinli satıcı ilə də baş verib.

Bütün işçilər gündəlik iş şərti ilə "Qatar Star Services" ilə bir aylıq müqavilə imzalayıblar. Onlar pulsuz yataqxana və gündə bir dəfə yeməklə təmin olunurlar.



# İlk dəfə...

**Dünya çempionatları tarixində daha bir ilk yaşanıb. Belə ki, mundiala evsahibliyi edən ölkə açılış matçında ilk dəfə uduzub. Bu, "DÇ-2022"nin Qətər-Ekvador açılış oyununda baş verib. Sözügedən görüşdə ev sahibi Qətər 0:2 hesabı ilə uduzub.**

Bundan əvvəl ev sahibi olan ölkələr əvvəlki 21 turnirdə 16 qələbə qazanıb və 6 heç-heçə edib. 2002-ci ildə Dünya çempionatı iki ölkədə - Cənubi Koreya və Yaponiyada keçirilib.





# Benzema mundialda olmayacaq

**Fransa millisinin hücumçusu Kərim Benzema zədə səbəbindən Dünya çempionatını buraxacaq.**

Bu barədə Fransa Futbol Federasiyası məlumat yayıb. Üç həftə yaşıl meydanlardan uzaq qalacaq forvard mundialda iştirak etməyəcək.

Fransa millisi Dünya çempionatının D qrupunda Avstraliya, Danimarka və Tunislə qarşılaşacaq.



# FİFA 7,5 milyard dollar qazanacaq

**FİFA-nın "DÇ-2022" də daxil olmaqla, 4 illik dövrədə əldə edəcəyi gəlir məlum olub.**

Bu barədə beynəlxalq futbol təşkilatının prezidenti Canni İnfantino bildirib. FİFA "DÇ-2022" də daxil olmaqla, 4 illik dövrədə təxminən 7,5 milyard dollar qazanacaq. Eyni zamanda "DÇ-2018" də daxil olmaqla, tsikl üzrə gəlirlər 6,4 milyard dollar təşkil edib ki, bu da indi gözlənilən gəlirdən 1,1 milyard azdır.



# Noyerlə bağlı sarı vərəqə qorxusu

Almaniya Futbol Assosiasiyası (DFB) millinin kapitanı Manuel Noyerin cəzalandırılmasından ehtiyatlanır. Buna səbəb qapıçının Dünya çempionatında "One Love" kapitanlıq sarğısında meydana çıxmaq niyyətində olmasıdır. Assosiasiya sarğı məsələsində FIFA ilə anlaşmadığı üçün hakimlərin reqlamentə uyğun olaraq Noyerə Yaponiya ilə ilk oyundan əvvəl sarı vərəqə verməsindən qorxur. İkinci sarı vərəqə isə 36 yaşlı qolkiperin bir oyunluq diskvalifikasiyasına səbəb ola bilər.

Qeyd edək ki, bir çox komandalar ayrı-seçkiliyə etiraz əlaməti olaraq "One Love" kapitanlıq sarğısından istifadə etmək niyyətindədir. FIFA-nın həmin yığmaları cərimələyəcəyi bildirilir.



# "Məsafəni hiss et!"

**Noyabrın 20-də Qətərin Əl Xor şəhərində Futbol üzrə 22-ci Dünya Çempionatının təntənəli açılış mərasimi olub.**



"Əl-Bayt" stadionunda təşkil olunan açılış mərasimində əvvəlcə Qətərin tarixini, adət-ənənələrini və mədəniyyətini özündə əks etdirən videoçarx yayımlanıb. "Məsafəni hiss et!" konsepsiyasında təşkil olunan mərasimdə ingiltərəli məşhur aktyor Morqan Friman bütün futbolsevərləri Qətərə dəvət edib, futbolun bütün xalqları birləşdirdiyini və gözəl atmosfer yaratdığını bildirib.

Açılış zamanı ötən 21 Dünya çempionatının himnlərindən ibarət xüsusi musiqi nömrəsi təqdim olunub. Həmçinin ötən mundialların maskotları "Əl-Bayt" stadionuna gətirilib. Sonda isə meydanda "Qətər-2022"nin talismanı - "La'eeb" nümayiş olunub. "La'eeb" super bacarıqlı oyunçu mənasını verir. Mərasimdə Cənubi Koreyanın pop qrupu BTS-nin üzvlərindən Çon Conquk "Dreamers" musiqisini ifa edib. Həmçinin bir çox tanınmış xarici və qətərli müğənni öz ifaları ilə iştirak ediblər.

Kuboku stadiona Fransa millisinin əfsanəvi müdafiəçisi Marsel Desayi gətirib. Sonra isə Qətər əmiri Şeyx Təmim bin Həməd Al Tani Dünya çempionatını açıq elan edib.

Qətərin evsahibliyi etdiyi mundial 29 gün davam edəcək. 31 ən güclü komanda və meydan sahiblərinin iştirakı ilə dünyanın ən güclüsü müəyyən olunacaq. Qeyd edək ki, Qətər Dünya çempionatına ilk dəfədir evsahibliyi edir.

Xatırladaq ki, Qətərdə keçirilən mundiala təqribən 208 milyard avro xərclənib. Bu, Rusiyada 2018-ci ildə keçirilən mundiala xərclənən məbləğdən 17 dəfə çoxdur. Rusiya Dünya çempionatına evsahibliyi etmək üçün 11,6 milyard funt-sterlinq (təxminən 13 milyard avro) xərcləyib.





# Valensiyanın son durumu açıqlandı

**Ekvador yığmasının futbolçusu Enner Valensiya "DÇ-2022"-nin 2-ci turunda Niderlandla matçda oynaya biləcək. FİFA-dan verilən xəbərə görə, bu barədə komandanın baş məşqçisi Qustavo Alfaro danışıb.**

33 yaşlı hücumçu ötən gün açılış görüşündə - Qətərlə oyunda (2:0) sıradan çıxıb və 77-ci dəqiqədə əvəzlənib. Qustavo Alfaro isə Valensiyanın Niderlandla matça qədər hazır olacağını bildirib: "Enner Niderlanda qarşı meydana çıxacaq. Buna heç bir şübhə yoxdur".

Qeyd edək ki, Niderland - Ekvador oyunu noyabrın 25-də keçiriləcək və Bakı vaxtı ilə saat 20.00-da başlayacaq.

Xatırladaq ki, Qətərlə görüşdə Ekvadorun hər iki qolunu Enner Valensiya vurub. O, oyunun ən yaxşı futbolçusu seçilib.

*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*

*Təkrar*

## "Azərişıq" ASC Cəbrayıl şəhəri ərazisində yeni 35/0,4 kV-luq "Cəbrayıl" Yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1: Cəbrayıl şəhəri ərazisində yeni 35/0,4 kV-luq "Cəbrayıl" Yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması.**

**İştirak haqqı - 850 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namik Heybətov
Əlaqə telefonu (şəhər): (012) 440 39 93 (daxili: 92-19)
Elektron poçt: **namiq.heybetov@azerishiq.az**
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə Vergi Bəyannaməsi);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);*
- *müvafiq lisenziya və icazələr;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədəolma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;*
- *podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(www.etender.gov.az).**

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 dekabr 2022-ci il saat 12:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **19 dekabr 2022-ci il saat 12:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 dekabr 2022-ci il saat 12:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Azərişıq" ASC Qubadlı şəhəri ərazisində yeni 35/0,4 kV-luq "Qubadlı" Yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1: Qubadlı şəhəri ərazisində yeni 35/0,4 kV-luq "Qubadlı" Yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması.**

**İştirak haqqı - 850 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namik Heybətov
Əlaqə telefonu (şəhər): (012) 440 39 93 (daxili: 92-19)
Elektron poçt: **namiq.heybetov@azerishiq.az**
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə Vergi Bəyannaməsi);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);*
- *müvafiq lisenziya və icazələr;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədəolma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;*
- *podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(www.tender.gov.az).**

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 dekabr 2022-ci il saat 15:30-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **19 dekabr 2022-ci il saat 15:30-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 dekabr 2022-ci il saat 15:30-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Azərişıq" ASC Zəngilan şəhəri ərazisində yeni 35/0,4 kV-luq "Zəngilan" Yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1: Zəngilan şəhəri ərazisində yeni 35/0,4 kV-luq "Zəngilan" Yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması.**

**İştirak haqqı - 850 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namik Heybətov
Əlaqə telefonu (şəhər): (012) 440 39 93 (daxili: 92-19)
Elektron poçt: **namiq.heybetov@azerishiq.az**
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə Vergi Bəyannaməsi);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);*
- *müvafiq lisenziya və icazələr;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədəolma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;*
- *podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(www.tender.gov.az).**

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 dekabr 2022-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **19 dekabr 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 dekabr 2022-ci il saat 15:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 25.11.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarəsinə ümumi təyinatlı malın satın alınması məqsədilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 noyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1053.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binaları üçün müxtəlif tipli kondisionerlərin və mərkəzi soyutma-isitmə tipli (VRV və ya VRF) sistemin təchizatı və quraşdırılması işlərinin satın alınması üzrə tender Satınalmalar komissiyasının 18 noyabr 2022-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıtdan Zakir Fərəcov ailəsi ilə birlikdə Elçin və Rauf Babayevlərə qardaşları

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi komissiyanın şöbə müdiri Mübariz Məmmədliyə anası

**SEVİL XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov və cəmiyyətin kollektivi Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin əməkdaşı

**GÜLSÜM ALLAHVERDİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi coğrafiyaçı alim Mirzəxan Mənsimova oğlu

**NURLAN MƏNSİMLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nizam, Əli və Rafiq Hüseynovlar, Əlövsət Əliyev və Rza İsmayılov Azərbaycan Respublikası Maliyyə Nazirliyinin aparatının sektor müdiri Vüqar Şıxməmmədova atası

**FEVRAL AĞƏLİ OĞLU ŞIXMƏMMƏDOVUN**

Qusar rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağdamdan Vaqif Həsənov Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universiteti Biologiya fakültəsinin kollektivi universitetin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru, professor Natiq Cavadov və Bakı Dövlət Universitetinin dekanı Rövşən Cavadov Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin rəhbərliyi, Həmkarlar İttifaqı Təşkilatı və kollektivi Milli Aerokosmik Agentliyi Ekologiya İnstitutunun Naxçıvan şöbəsinin rəisi

**NAZİM SƏFƏRƏLİ OĞLU BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universiteti Sosial elmlər və psixologiya fakültəsinin dekanlığı və professor-müəllim heyəti BDU-nun rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov BDU-nun rektoru, dosent Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6507
Sifariş 3311
Qiyməti 40 qəpik